YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet   2-3 may 2015-ci il   Şənbə   № 94 (6122)   Qiymәti 40 qәpik

## Xəbər

**"Parabank"ın İdarə Heyətinin rəhbəri "yoxa çıxıb"...**

yazısı səh.4-də

## Gündəm

**Demokratik qüvvələrdən Bakı-Vaşinqton savaşına ilginc reaksiyalar**



**Arif Hacılı:** "Əslində bu, nə hakimiyyətin, nə də Azərbaycan dövlətinin maraqlarına uyğun deyil"

yazısı səh.6-da

**"Geopolitik qarşıdurma artıq Azərbaycanı da əhatə edir"**

yazısı səh.4-də

**Hüquq müdafiəçisi Taleh Xasməmmədovun məhkəməsi başlayır**

yazısı səh.5-də

**Müsavat, AXCP və REAL rəhbərləri Britaniya səfirliyində**

yazısı səh.4-də

**ABŞ-da seçki yarışı başlayır - favorit namizədlər artıq var**

yazısı səh.9-da

**Avropa ölkələrinə investisiya qoymaqla vətəndaşlıq ala bilərsiniz**

yazısı səh.12-də

**Müsavat yenidən mitinq müzakirələrinə başlayır...**

yazısı səh.10-da

*Samir Əliyev:*
**"Manat heç zaman əvvəlki kimi baha olmayacaq"**

yazısı səh.15-də

**Hepatit B peyvəndi - həyat qurtaran vaksin**

yazısı səh.14-də

**İki rayonun icra hakimiyyəti yoxlanılacaq**

yazısı səh.2-də

**Avropa Oyunları zamanı nələr qadağandır...**

yazısı səh.15-də

## Kreml "sol" əli ilə elə bir oyun qurdu ki...

# PUTİNİN BAKIDAN İNTİQAMI: 500 MİLYONLUQ MÜQAVİLƏ POZULUR

Kreml Avropa Birliyinin ləngiməsindən istifadə edərək Azərbaycanı ciddi bir strateji qaz kartından məhrum edir; Yunanıstanın solçu hökuməti DESFA şirkətinin səhmlərinin SOCAR-a satılması barədə müqaviləni geri oxuyur...




yazısı səh.9-da

## İqtidardan müxalifətə "Avropa Oyunları" təklifi - görüş olacaqmı?

"Azadlıq-2015"-ə daxil olan partiyaların sədrləri təcili toplaşdı; yekun qərar partiyaların rəhbər orqanlarında aparılan müzakirələrdən sonra veriləcək; Müsavata dəvət gəlməyib...

yazısı səh.5-də



**7 günlük "azadlıq" bitdi - Tofiq Yaqublu həbsxanaya qaytarıldı**

yazısı səh.3-də



*Elxan Şahinoğlu:*
**"Üçüncü "Maydan"a ehtiyac yoxdur"**

yazısı səh.11-də



*Rauf Arifoğlu:*
**"Steynar Gil Azərbaycanı bir sıra yalançı vətənpərvərlərdən daha çox sevir"**

yazısı səh.8-də

**2 may 2015**



# Prezident ehtiyat fondundan Saatlıya 3 milyon ayırdı

**Azərbaycan Prezidenti İlham Əliyev Saatlı rayonunun Saatlı-Sarıcalar-Qara Nuru-Şirinbəyli-Fətəlikənd-Azadkənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda aşağıdakı göstərişlər verilib:

1. Əlli bir min nəfər əhalinin yaşadığı 19 yaşayış məntəqəsini birləşdirən Saatlı-Sarıcalar-Qara Nuru-Şirinbəyli-Fətəlikənd-Azadkənd avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Saatlı Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin".

# Azərbaycanda daha bir bank rəhbəri istefa verdi

**Azərbaycan Sənaye Bankının İdarə Heyətinin sədri Hüseyin Özmen istefa verib. "Qafqazinfo" marja.az-a istinadən xəbər verir ki, "Azərsun Holdinq"in İctimaiyyətlə Əlaqələr və Sosial Xidmətlər Departamentinin rəhbəri Afiq Səfərov məlumatı təsdiqləyib:**

"Bəli, məlumat doğrudur. Onunla bağlanılmış müqavilə də başa çatıb".

Hüseyin Özmenin yerinə təyinat olmayıb.

# Azərbaycanlı deputatdan Vaşinqtona xəbərdarlıq

## Asim Mollazadə: "Erməni lobbiçiliyi tək Azərbaycana qarşı deyil, həm də ABŞ-ın öz maraqlarına qarşı yönəlib"

**"Azərbaycan ABŞ-la təhlükəsizlik, enerji sahəsində ciddi tərəfdaşdır, Avropa Birliyinin enerji təhlükəsizliyində böyük rol oynayır. Ölkəmiz Avropa oyunlarını keçirərək Avropadan olan minlərlə qonağı Azərbaycan mədəniyyəti, Azərbaycan dəyərləri ilə tanış etmək istəyir. Və mən çox məmnunam ki, ölkədə Avropa oyunlarına dəstək məqsədilə ictimai koalisiya yaranıb".**

**Bu fikri Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadə** "Bakı 2015 Birinci Avropa Oyunlarına Dəstək" Vətəndaş Cəmiyyəti Koalisiyasının "Qərbin ikili standartları: demokratiya və insan hüquqları" mövzusunda keçirdiyi dəyirmi masada səsləndirib. Sözügedən koalisiyanın Azərbaycana qarşı çevrilən, türk nifrətilə yaşayan qüvvələrin qarşısını almağa yönələn bir qurum olmasını arzuladığını bildirən A.Mollazadə belə deyib: "ABŞ-da, Avropada yaşayan çoxmilyonlu qruplar Azərbaycana qarşı çirkin təbliğat aparırlar. Çünki onlar son vaxtlar erməni cinayətlərini ifşa edən məsələlərin gündəmə gəlməsindən çox narahatdırlar. Artıq ABŞ-ın 19 ştatı Xocalı soyqırımı ilə bağlı qətnamə qəbul edib. ABŞ-ın 25 ştatında Azərbaycanın mövqeyini dəstəkləyən bəyanatlar verilib".

Deputatın fikrincə, ABŞ-dakı antiazərbaycan əhval-ruhiyyəsi yaradan erməni lobbiçiliyi təkcə Azərbaycana qarşı deyil, həm də ABŞ-ın öz maraqlarına qarşı yönəlib: "Konqresdə, Senatda erməni lobbiçiliyini edən siyasətçilər var. Təəssüf ki, onlar hökumətə daxil olarkən də öz lobbiçilik siyasətlərinə son qoya bilmirlər. Bu fəaliyyət tək Azərbaycanın əleyhinə deyil, həm də Azərbaycanın dostu olan ABŞ-ın siyasətinə, maraqlarına qarşıdır. Bu fəaliyyət yalnız erməni lobbisinin maraqlarına uyğundur". A.Mollazadə əlavə edib ki, Azərbaycanın ictimai təşkilatları və gəncliyi də Avropa oyunları ərəfəsində ölkəmizə qarşı aparılan bu kampaniyaya beynəlxalq səviyyədə öz etirazlarını bildirməlidirlər.

❑ **Vüqar MURAD**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# "Dağlıq Qarabağda "seçkilər" status-kvonu uzatmağa hesablanıb"





**"Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində yaradılmış qondarma rejimin "seçki" adı altında hər hansı hərəkəti siyasi şoudur, özünü xatırlatmadan başqa bir şey deyil və buna görə də heç kim tərəfindən ciddi qəbul edilmir. Mayın 3-nə elan edilən sözdə "parlament seçkiləri" isə Azərbaycan Respublikası Konstitusiyasının, qanunlarının və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır". Bu sözləri Milli Məclisin üzvü, ATƏT PA-nın Siyasi məsələlər və təhlükəsizlik komitəsinin sədr müavini Azay Quliyev Trend-in suallarını cavablandırarkən bildirib.**

A.Quliyev hesab edir ki, indiki şəraitdə, regiondakı belə gərgin dönəmdə Ermənistanın bu cür spekulyasiyası daha çox ATƏT-in Minsk qrupunun həmsədrlərinin sülh sazişi üzərində işə başlamaq üçün çağırışlarını qulaqardına vurmaq, danışıqlar prosesinə xələl gətirmək və status-kvonu uzatmağa hesablanıb.

Millət vəkilinin sözlərinə görə, bu seçki oyunu beynəlxalq ictimaiyyət tərəfindən tanınmır, pislənilir, qanunsuz hesab edilir.

"Azərbaycan Respublikasının Konstitusiyasına görə, heç bir sosial qrup, təşkilat və şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Seçkilər və referendumlar Azərbaycan Respublikasının Konstitusiyasına və Seçki Məcəlləsinə əsasən keçirilməlidir", - deyən millət vəkili bildirib ki, işğal altında olan ərazilərdə seçkilər və referendumlar yalnız həmin torpaqlar işğaldan tam azad edildikdən, Azərbaycanın ərazi bütövlüyü bərpa olunduqdan və həmin ərazilərdə yaşamış insanlar öz daimi yaşayış yerlərinə qayıtdıqdan sonra Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əsasən keçirilə bilər.

**A.Quliyev onu da əlavə edib ki, bu "seçkilər"də "müşahidəçi" qismində iştirak etmək istəyən xarici ölkə vətəndaşlarına qarşı Azərbaycan Respublikası qanunlarına uyğun olaraq sərt inzibati tədbirlərin, xüsusilə də onlara qarşı cinayət işinin açılacağı haqqında aidiyyəti qurumların verdiyi bəyanatı alqışlayır. Onun fikrincə, "müşahidəçi"lər, Dağlıq Qarabağa qanunsuz səfər edənlər əslində işğalı, təcavüzü və Azərbaycan xalqına qarşı törədilmiş qanlı etnik təmizləmənin nəticələrini təşviq edirlər:** "Belə fəaliyyət isə təbii ki, qanunsuzdur və kifayət qədər hüquqi məsuliyyət yaradır".



# İki rayonun icra hakimiyyəti yoxlanılacaq

**Hesablama Palatası Sabirabad və Oğuz rayonlarının icra hakimiyyətlərində yoxlamalar aparacaq. Virtualaz.org Hesablama Palatasına istinadən bildirir ki, bu barədə qərar qurumun kollegiyasının 1 may tarixli iclasında qəbul olunub.**

Qərara əsasən, dövlət büdcəsinin "Mənzil və kommunal təsərrüfatı" bölməsindən və dövlət əsaslı vəsait qoyuluşundan Sabirabad Rayon İcra Hakimiyyəti və tabeliyində olan idarə, müəssisə və təşkilatlara ayrılan vəsaitlərin istifadəsinə dair, dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşundan və ehtiyat fondlarından Oğuz Rayon İcra Hakimiyyətinə ayrılan vəsaitlərin istifadəsinə dair və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" Açıq Səhmdar Cəmiyyətinə dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsinə dair audit proqramları təsdiq olunub.





# "Nurgün" Şirkətlər Qrupu aznews.az saytını məhkəməyə verir

## Şirkət yetkililəri iddia edir ki, satış salonları fəaliyyətini heç vaxt dayandırmayıb



**"Nurgün" Şirkətlər Qrupu barəsində yazı dərc edən mətbuat orqanlarını məhkəməyə verməyə hazırlaşır. Bu haqda "Yeni Müsavat"a daxil olan məlumata görə, ilkin olaraq aznews.az saytı məhkəməyə veriləcək.**

Qurumun hüquqşünasları hesab edirlər ki, sayt Mütəşəkkil Cinayətkarlıqla Mübarize İdarəsinin əməkdaşlarının qrupa daxil olan bir neçə avtomobil satış mərkəzi və salonlarında əməliyyat keçirməsi haqda yalan məlumat yaymaqla "Nurgün"ə ziyan verib.

Yada salaq ki, həmin məlumatda iddia olunurdu ki, əməliyyat nəticəsində "Nurgün Motors"un bəzi salonlarının, eləcə də "Avto Line", "Avto Qalareya", "Avto Murad" və digər salonların rəhbərləri, eləcə də bəzi əməkdaşları saxlanılaraq MCMİ-yə aparılıb. Saytın əldə etdiyi xəbərə görə, əməliyyata səbəb salonlarda keyfiyyətsiz avtomobillərin satılması, müştərilərin aldadılması ilə bağlı çoxsaylı şikayətlərin edilməsi olub. Şikayətlər əsasən suya düşmüş, istifadəsi təhlükəli olan avtomobillərin və işlənmiş avtomobillərin "probeq"inin aşağı salınaraq baha qiymətə satılması ilə bağlı olub. "Nurgün Motors"un marketinq şöbəsindən bildiriblər ki, satış mərkəzlərindən yalnız birində təmir işləri aparıldığı üçün cəmi 1-2 gün onun fəaliyyətini müvəqqəti dayandırıb.

"Yeni Müsavat" əməkdaşı "Nurgün Motors"a aid olan avtomobil salonlarına baş çəkib. Məlum olub ki, salonlarda normal iş rejimi var. Salonlardan yalnız birindən bildiriblər ki, təmirlə əlaqədar 1-2 günlük istirahət ediblər və təmir bitəndən sonra yenidən fəaliyyətə başlayıblar. Yerdə qalan salonlardakı yetkililər iddia etdilər ki, onların iş prosesi heç vaxt dayanmayıb.

# Ramil Usubov Göyçayda vətəndaşları qəbul edəcək

**Daxili işlər naziri, general-polkovnik Ramil Usubov mayın 30-da saat 10:00-da Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Naftalan, Xocalı şəhər və rayonlarının sakinlərini Göyçay Rayon Polis Şöbəsində qəbul edəcək.**

DİN-in saytında verilən məlumata görə, qəbul başa çatdıqdan sonra daxili işlər orqanlarının sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək istəyən şəxslərin sıra baxışı keçiriləcək.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər. Müsabiqəyə yuxarıda göstərilən şəhər, rayon polis şöbələrinin post-patrul nizami hissələri üzrə 30 vəzifə elan edilir.

DİN diqqətə çatdırır ki, həmin vəzifələrdə əmək funksiyalarının yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından kişi cinsli vətəndaşlara üstünlük veriləcəyi nəzərə alınmalıdır.

# Fərhad Əliyev Azərbaycana qayıtmaq istəmir

**Keçmiş iqtisadi inkişaf naziri Fərhad Əliyev Böyük Britaniyanın London şəhərinə köçüb və Azərbaycana qayıtmaq istəmir. Bu haqda redaksiyamıza məlumat verən mənbə deyib ki, sabiq nazirin oğlu Yusif Əliyev Londonda təhsil alır və orada Əliyevlərin mülkləri var.**

Həmin mülklər varlığı sabiq nazirə Böyük Britaniyada uzun müddət yaşamağa imkan verir. Bu dövlətin qanunlarına Böyük Britaniya iqtisadiyyatına hər hansı bir şəkildə 600 min funt sterlinqdən artıq sərmayə qoymuş şəxsə avtomatik olaraq qızıl viza verilir. Belə məlumat var ki, sabiq nazirin Londondakı mülkünün qiyməti bu rəqəmi bir neçə dəfə aşır. F.Əliyevin ölkəyə gəlmək istəməməsi ölkədəki mühitlə əlaqələndirilir. Sabiq nazirin ətrafından verilən məlumata görə, qanunsuz həbsindən sonra o, ölkədə islahatların aparılacağına ümidlərini tamamilə itirib. O, qanunsuz həbsi ilə bağlı məsələləri də mübahisələndirməyib. F.Əliyev Azərbaycana qayıdıb burada yenidən biznes şəbəkəsi yaratmaq, işləmək istəyinin olmadığını da dilə gətirib. O, əlindəki sərmayəni xaricdə qardaşı Rafiq Əliyevin şirkətlərinə yatırmaqla Londonda rahat həyat yaşamağa üstünlük verir. 8 illik həbsdən sonra azadlığa çıxan F.Əliyevin yazın zamanlarda ölkəyə dönməyəcəyi də vurğulanır.

**2005-ci ildə həbs olunan Fərhad və Rafiq Əliyev qardaşları 2013-cü il oktyabrın 14-də prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə azadlığa çıxıb.**

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 94 (6122) 2 may 2015

**Qızının vaxtsız ölümü ilə əlaqədar 7 günlüyə azadlığa buraxılan Müsavat başqanının müavini, vicdan məhbusu Tofiq Yaqublu mayın 1-də saat 13:20 radələrində həbsxanaya qaytarılıb. T.Yaqublunu 13 saylı cəzaçəkmə müəssisəsinə yaxınları, partiya və döyüş dostları yola salıblar.**







# 7 günlük "azadlıq" bitdi - Tofiq Yaqublu həbsxanaya qaytarıldı

## Vicdan məhbusu yaşadığı evi tərk edərkən duyğusal anlar yaşandı; **Nemət Kərimli:** "Tofiq Yaqublunu əfv edəcəklər..."





Vicdan məhbusu yaşadığı evi tərk edərkən duyğusal anlar yaşanıb. Yaxınları, dostları və əqidədaşları onunla görüşərkən, göz yaşlarını gizlədə bilməyiblər. T.Yaqublu hər kəsə möhkəm olmağı xahiş edib. Son günlərdə yaşadığı faciə ilə bağlı yanında olan, ona mənəvi dəstək verənlərə öz təşəkkürünü bildirib. Sonda ayrılarkən vicdan məhbusunun kinayəli şəkildə "Limuzinim hanı" deməsi, onu yola salanları bir daha göz yaşlarına qərq edib.

Tofiq Yaqublunu Penitensiar Xidmətin avtomobilinə qədər insanlar müşayİət ediblər.

Qeyd edək ki, vicdan məhbusu azadlıqda olduğu bir həftədə bir sıra siyasi qurumlar, deputatlar və tanınmış simalar onun əfv edilməsi üçün ölkə başçısına müraciət ediblər. Amma göründüyü kimi, hələ ki müraciətlər öz bəhrəsini verməyib. Gənc övladını vaxtsız itirən ata, yenidən həbsxana divarları arxasına qayıtdı. Valideyn üçün bundan ağır dərd ola bilməz...

**Vicdan məhbusunun vəkili Nemət Kərimli** isə hələ də onun əfvə düşəcəyinə inandıqlarını söylədi: "Bir çox deputatın, İşçi Qrupu və Əfv Komissiyası üzvlərinin dilindən səslənir ki, Avropa Oyunlarına qədər əfv olacaq. Konkret 28 mayda əfv olacağı deyilir. İnanıram ki, Tofiq bəyi əfv edəcəklər. Ümidimiz yüksəkdir".

Xatırladaq ki, Qarabağ müharibəsi veteranı olan Tofiq Yaqublu 2013-cü ilin yanvarında baş verən məlum İsmayıllı hadisələrinə görə həbs edilib. O, 5 il müddətinə azadlıqdan məhrum edilib. Yerli və beynəlxalq təşkilatlar onu vicdan məhbusu kimi tanıyır. Onun qızı, mərhum əməkdaşımız Nərgiz Yaqublu aprelin 23-də səhər saatlarında dünyasını dəyişib. O, xeyli müddət idi ki, Hepatit C xəstəliyindən müalicə olunurdu. 26 yaşı var idi. Ondan yeganə yadigar qalan körpəsidir.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# "Vurğun Əyyub partiyanın minlərlə sıravi üzvündən biridir"

## **Elman Fəttah:** "Müsavatın strukturları sifarişlə idarə olunmur, sifarişlə qərar qəbul etmir"

**Vurğun Əyyubun Müsavatdan çıxarılmasına hazırlıq görüldüyü barədə dünən xəbər yayılıb. Yenicag.az saytının yaydığı xəbərdə deyilir ki, rəhbərlik bunu aşağı təşkilatların əli ilə həyata keçirmək istəyir, hazırda partiya rəhbərliyi Vurğun Əyyubun təşkilat sıralarından xaric edilməsi məsələsinə baxılmasına ciddi-cəhdlə çalışır:**



Vurğun Əyyub



Elman Fəttah

"Bu barədə məlumat verən mənbə bildirdi ki, Vurğun Əyyubla bağlı Müsavat MNTK-na onun yeni rəhbərliklə bağlı qurultaydan sonrakı çıxışlarında təhqir elementlərinin olub-olmadığını aydınlaşdırmaqla bağlı göstəriş vermişdi. MNTK isə bu çıxışlarda hər hansı bir təhqir elementlərinin olduğunu aşkarlaya bilməyib. Buna nail olmayan yeni rəhbərlik Binəqədi rayon təşkilatının əvvəlki sədri Nemət Kərimlinin patronajlığı ilə 8-ci özək sədrindən tələb edib ki, özəyin iclasını çağırmaqla üzvü olduğu V. Əyyubu aşağıdan partiya sıralarından xaric etsinlər. Həmin özək aprelin 19-da bir dəfə bu istiqamətdə addım atsa da, rəhbərliyin həmin istəyinin reallaşmasına nail ola bilməyib. Bununla belə rəhbərlik yenə də çalışır ki, nəyin bahasına olursa-olsun V. Əyyub partiya sıralarından uzaqlaşdırılsın".

**Müsavat başqanının müavini Elman Fəttah** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Vurğun Əyyubun partiyadan çıxarılması kimi məsələ partiyada müzakirə mövzusu deyil. Vurğun Əyyub Müsavatın minlərlə sıravi üzvündən biridir: "Müsavat Partiyasının strukturları sifarişlə idarə olunmur, sifarişlə qərar qəbul etmir. Müsavat Partiyası, onun strukturları nizamnamə ilə idarə olunur və nizamnamədə göstərilməyib ki, kimsə keçmişdə hansısa müsbət bir işin iştirakçısı olubsa sonradan nizamnaməni pozmasına göz yumulmalıdır. Nizamnamə pozuntusuna yol verən partiya üzvünün məsələsi partiyanın rayon təşkilatında müzakirə edilir, məsələ orada aydınlaşdırılır, uyğun olsa partiyanın mərkəzi orqanlarına şikayət ünvanlanır və məsələ orada araşdırılaraq müvafiq qərar verilir. Vurğun Əyyubun nizamnamə pozuntusu törədib-törətmədiyi nə vaxtsa partiyanın müvafiq rayon təşkilatında və partiyanın strukturlarının hər hansı birində müzakirəyə çıxarılacaqsa, nəticəsindən asılı olaraq biz buna münasibət bildirərik".

**Qeyd edək ki, Müsavatın sabiq Məclis üzvü Vurğun Əyyub** bir həftə öncə "Reytinq" qəzetinə müsahibəsində bəyan etmişdi ki, qurultaydan bəri onu partiyadan uzaqlaşdırmağa cəhd göstərilib, amma rayon təşkilatlarının üzvləri tərəfindən bu cəhdlərin qarşısı alınıb: "Hesab edirəm ki, məni partiyadan uzaqlaşdırmaq elə də asan məsələ deyil. Bu fikrə düşənlər unutmamalıdırlar ki, Vurğun Əyyub Müsavat Partiyasının bərpa mərkəzinin üzvlərindən biridir. Bir də mən hesab etmirəm ki, müsavatçılıq ancaq Müsavat adında partiyanın üzvü olmaqla ölçülür".

❑ **E.SEYİDAĞA**

# Çavesin aqibəti, xırda məmurun hiddəti



**Samir SARI**

**Yadınızda qalmış olar, Venesuelada bir qırmızı köynəkli oğlan vardı, öz dilimizdə desək, "blatnoy" oğlan idi, prezident işləyirdi, adı da Uqo Şaves idi, dünya şöhrəti qazanmışdı.**

Adam solçuydu, 1 Mayı həmişə təntənə ilə qeyd edərdi, amma söz bunda deyil, bunu bugünkü gün münasibətilə yazdım.

Komandantenin dünya şöhrəti doğrudan da analoqsuz idi. İmtahan üçün, bu saat çıxaq "Makler bağı"na, Venesuela ilə qonşu dövlətlərin, belə lap Braziliya və Argentinanın prezidentlərinin adını soruşaq, 10 respondentdən 9-u bilməyəcək, amma çoxu Çavesi tanıyacaqE Nə qədər olmasa da, qəzet və sayt oxuyan adamlardır.

Çavesin dünya şöhrətinin səbəbi, bilirsinizmi, nəydi?

İndi biri deyəcək ki, Çavesi dünyaya tanıdan neft milyardlarıydı. Xeyr. Onda Venesuelanın öz regionunun lideri olması, iqtisadi inkişaf templərinə nəinki Cənubi Amerikada, hətta bütün dünyada öndə olmasıydı. Yenə də xeyr. Yaxşı, bə nəydi?

Çavesi dünyanın 3-5 məşhur prezidenti edən başlıca amil o idi ki, rəhmətlik Amerikaya çox direşirdi. Harda çıxış edirdi, mütləq prezident Buşa, Obamaya, dövlət katibləri Kolin Pauellə, Kondoliza Raysa ilişirdi, onları dünya ölkələrinin daxili işlərinə qarışmaqda suçlayırdı.

Özü də bir az baməzə adam idi, düşmənlərinə qarşı gülməli, baməzə təşbehlərdən istifadə edirdi. Venesuela xalqı belə xasiyyətinə görə onu çox istəyirdi, hər dəfə elliklə yığılıb ona səs verirdilər.

Öz növbəsində amerikalıların da ondan, onun qırmızı köynəyindən, dostları Fidel Kastrodan, Mahmud Əhmədinejaddan, Müəmmər Qəzzafidən zəhləsi gedirdi.

Çaves adını çəkdiyim adamlarla (Fidel, Mahmud, Müəmmər) dost idi, necə deyərlər, bir "kruq"dan idilər.

Amma sonra o dairə dağıldı: Əhmədinejad 3-cü dəfə prezident seçilmədi, Kastro xəstələndi və ikinci 50 illik müddətə dövlət başçısı ola bilmədi, Qəzzafini tutub bihörmət etdilər, rüsvayi-cahan edib öldürdülər, Çaves də sağalmaz xəstəliyə yoluxdu, vəfat etdi. Amerika isə hələ yerindədir.

Hərdən deyirlər ki, guya Çavesi Amerika kəşfiyyatı hansısa şüa ilə necəsə yoluxdurub, yazıq ona görə ömrünün çiçəklənən çağında qırmızı köynəyini ağ kəfənə dəyişib. İnandırıcı deyil. Əgər Çaves başqa bir qüdrətli dövlətin düşməni olsaydı, söz yox, onu poloniumla zəhərləyə, telefonla danışdığı yerdə raketlə vura, Dubayda maşınını partlada, şəhərin ortasında sevgilisi ilə gəzdiyi yerdə dörd güllə ilə vurub öldürə bilərdilər. Heç kəs də şübhə etməzdi.

Ancaq son illər adam şübhələnir ki, Amerikanın adı çıxıb, əslində onda o hünər yoxdur. Bəli, vaxtında babat işləyiblər, snayperlərlə iş görüblər, zəhərli iynələrlə çalışıblar. Amma hiss olunur ki, artıq bu sahədə fəaliyyətləri zəifləyib, ona görə də üstlərinə diş qıcayan, dil çıxardan, barmaq silkələyən çoxdur.

Təsəvvür edin, iş nə yerdədir ki, 50 ştatlıq Amerikanın ən balaca ştatı boyda olan bir ölkənin, Azərbaycanın, yerə gələndə sahə müvəkkilindən qorxan xırda məmurlarından biri durub Amerikanı hədələyir, deyir, özünü yaxşı apar, bizim daxili işlərimizə burun soxma. Bu, hələ mədənisidir, var-yox söyüşü söyənlər də var, dövlət katibi Kerrinin işdən çıxarılmasını tələb edənlər də.

Venesuelalıları bilmirəm, bizim camaat çox sərvaxt, praqmatik, ağıllıdır. Əgər o, hirslənib Amerikanın üstünə gedirsə, bir bildiyi var, bilir ki, Amerika ona qoşulmayacaq, həm də çox uzaqdadır, hiddətlənsə də bir şey edə bilməz. Kəsəsi, bizimkilər, Amerikanın başını yoxlayıb, işini bilir.

İndi baxaq, görək, Kerrinin bizə qarşı elədiyinin on qat artığını Narışkin və ya Bordyuja etsəydi, bizim deputatlar, məmurlar səslərini çıxarardılarmı? Əsla çıxarmazdılar. Necə ki, indiyədək çıxarmayıblar. Rusiya isə indiyədək ölkəmizə Amerikanın etdiyindən 20 dəfə artıq yamanlıqlar edib. (Burada 20 rəqəmi 20 faizi də ehtiva edə bilər).

**Dediyim odur ki, qəti qorxusu yoxdur, əmi canı. Heç kəs Çavesin aqibətindən çəkinib, özünü Ağ Evə, Dövlət Departamentinə söymək zövqündən məhrum eləməsin. Heç nə edə bilməzlər. Yaramaz yankilər!**

YENİ MÜSAVAT
N 94 (6122) 2 may 2015



# "Demokratiyanın mayakı" qayıdır?

Azər RƏŞİDOĞLU

**Gürcüstanda siyasi gərginlik səngimək bilmir. Siyasi hakimiyyət böhrandan çıxış yolu axtarır. Gürcüstan baş naziri İrakli Qaribaşvili hökumətin yeni tərkibini açıqlayıb. Yerli qanunvericiliyə əsasən bundan sonra prezident Georgi Marqvelaşvili hökumətin yeni tərkibini parlamentə təqdim etməlidir. Öz növbəsində parlament yeni hökumətə etimad göstərməlidir. Lakin Gürcüstan prezidenti Georgi Marqvelaşvili hökumətin yeni siyahısını qəbul etməyib. G.Marqvelaşvili bunu baş nazir və parlamentə daha sakit şəraitdə hökuməti formalaşdırmaq üçün imkan yaratmaq istəyi ilə ələqələndirib.**

O bildirib ki, fors-major durumda hökuməti formalaşdırmaq düzgün deyil.

Qeyd edək ki, bu həftə İ.Qaribaşvilinin rəhbərlik etdiyi Nazirlər Kabinetindən sayca yeddinci nazir istefa verib. Bu üzdən də hökumətə etimad məsələsi gündəmə gəlib.

Onu da əlavə edək ki, İ.Qaribaşvili ölkə tarixində ilk dəfə müdafiə naziri postuna qadın namizədi irəli sürüb. Bu, deputat Tina Xidaşelidir. T.Xidaşelidən başqa siyahıda infrastruktur və idman naziri postlarına namizədlər yer alıb.

Beləliklə, Gürcüntanda maraqlı proseslər cərəyan etməkdədir. Mövcud konstitusiyaya görə, Gürcüstan parlament respublikasıdır və prezidentin səlahiyyətləri çox məhduddur.

Gürcü demokratiyasının ən nəhəng siması olan Mixail Saakaşvilinin hakimiyyətdən getməsi qonşu ölkədə ciddi proseslərə səbəb oldu. Araşdırmaçılar hesab edirlər ki, M.Saakaşvilinin bəxti heç gətirmədi. O, özü də Putinsayağı bir rotasiya hazırlayırdı. Lakin Putindən fərqli olaraq prezidentlik müddətinin sonu üçün Gürcüstanı parlament respublikasına çevirib, özü baş nazir olmaq istəyirdi. Amma Cənubi Qafqazda "demokratiyanın mayakı" rolu ona çox baha başa gəldi. Tiflisin küçələrini müxalifət tərəfdarlarının al qanına boyayıb, özünü, daha doğrusu partiyasını seçicilərin haradasa 90 faizinin etimadını qazanmış siyasi qüvvə elan etmək əvəzinə, parlament seçkilərində siyasi opponentlərinin qələbəsini etiraf etdi. Bununla da postsovet məkanındakı bütün həmkarlarının qəzəbinə düçar oldu. MDB ölkə başçılarının iyirmi illik zəhmətləri Saakaşvilinin "demokratiyanın mayakı" imicinə qurban getdi. MDB ölkə başçıları az qala iyirmi il gecə-gündüz tər tökdülər ki, bu coğrafiyada bir dəfə də olsun hakimiyyət seçkilər yolu ilə dəyişməsin. Bu məkanda nəyin həqiqət, nəyin yalan olduğunu aşkara çıxarmaq düşünüldüyü qədər sadə iş deyil.

Bir sözlə, Cənubi Qafqazdakı siyasi gerçəkliklərin bu cür əcaib özəllikləri var. Özü də qeyd etmək lazımdır ki, Azərbaycan istisna deyil. Bir sözlə, Saakaşvilinin həmkarları

20 il durmadan çalışdılar, qan-tər tökdülər, idarə etdikləri toplumları özlərinin əvəzolunmazlıqlarına, demək olar ki, inandırdılar. Saakaşvili isə öz şəxsi nümunəsi ilə hər şeyi bir dəqiqənin içində alt-üst etdi.

Onu da vurğulayaq ki, Gürcüstanda prezidentdən fərqli olaraq, baş nazirin hakimiyyət müddəti ilə bağlı ölkə konstitusiyasında heç bir məhdudiyyət yoxdur. Həttə, dəfələrlə parlament seçkilərinin qalibi və baş nazir olmaq mümkündür.

Gürcüstandakı son hakimiyyət böhranı onu deməyə əsas verir ki, M.Saakaşvilidən sonra Cənubi Qafqazda "demokratiya eksperimentləri"nə son qoyulması modeli iflasa uğrayır. M.Saakaşvili və ya onun komandasından kimsə iqtidara qayıda bilər. Bu perspektiv MDB məkanını qorxudur. MDB ölkələri bundan ehtiyat edir. Onlar qısa bir zamanda rüşvətin kökünü qazıyan və "özüm rüşvət almadım deyə buna nail ola bildim",- deyən M.Saakaşvilidən çəkinirlər.

**M.Saakaşvili MDB məkanı üçün bir nümunədir. Qərbin uğurlu bir layihəsidir. Bir situmuldur. Bir simvoldur. Gürcüstandakı son böhran nəzərlərin yenidən M.Saakaşviliyə dikilməsi ilə başa çatdı. Bu isə MDB məkanında olan demokratik qüvvələrə ruh verir...**

# "Geopolitik qarşıdurma artıq Azərbaycanı da əhatə edir"

## Sülhəddin Əkbər: "Hakimiyyət və Rusiya Avropa Birliyinin, ABŞ-ın demokratik qüvvələrə dəstək verə biləcəyindən narahatdır"

**Son günlər Qərb ölkələri ilə Azərbaycan hakimiyyəti arasında ziddiyyətlər böyüyür. Bunu hətta hökumət rəsmiləri belə etiraf edirlər. Məsələn, Prezident Administrasiyasının şöbə müdiri Novruz Məmmədov açıq şəkildə bildirib ki, ağır pressinq altındadırlar: "Azərbaycanda keçiriləcək Avropa Oyunları ərəfəsində bizə elə kütləvi hücum başlayıb ki, biz bunu təsəvvür edə bilmirik.**

Bəlkə olimpiada bitərdi, sonra başlayardılar. Biz bildiklərimizin hamısını sizə desək, heyrətə gələrsiniz".

Bundan əvvəl isə hökumətyönlü mətbu orqanlar ABŞ dövlət katibi Con Kerrinin təşkilatının ölkədə inqilab hazırlamaqda ittiham ediblər.

Görəsən, nə baş verir? Doğrudanmı hakimiyyətə xaricdən ciddi təzyiqlər var?

Bu suallarla **Azərbaycan Avroatlantik Şurasının və Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbərə** müraciət etdik. S.Əkbər bildirdi ki, bir neçə ildir Azərbaycan öz strateji seçimini etməlidir, vaxt daralır, Azərbaycanın manevr imkanları məhdudlaşır: "İllərdir bunu deyirdik ki, dünyada demokratiyanın genişlənməsi artıq yalnız siyasi hadisə deyil, bu həm də strateji bir məsələdir. Çünki daxili demokratik inkişaf xarici inkişaf sektoruna da birbaşa təsir edir. Yəni demokratik inkişaf yolu tutmuş ölkələr Avropa və Avroatlantik məkana inteqrasiya yolu tuturlar. Bu, o deməkdir ki, hansı postsovet ölkəsi avtoritarizmdən demokratiyaya keçəcəksə və ya keçirsə, o artıq Rusiyanın təsir sferasından çıxıb ABŞ, Avropa Birliyi və NATO-nun təsir sferasına daxil olur. Yəni, dava bunun üzərindədir".



Sülhəddin Əkbər

**S.Əkbərin sözlərinə görə, bu institutların genişlənməsi soyuq müharibə bitəndən sonra başladı, Avropa Birliyi və NATO şərqə doğru genişlənir. Bu genişlənmə coğrafi yaxınlıq nəzərə alınmaqla mərhələ-mərhələ gedir. Əvvəlcə mərkəzi və şərqi Avropa ölkələri, sonra Cənubi şərqi Avropa ölkələri, nəhayət postsovet ölkələri Avropa Birliyi və NATO-ya inteqrasiya olunmağa başladı:** "Yəni artıq proses postsovet məkanına daxil olub, üç keçmiş SSRİ respublikası Avropa Birliyi və NATO-nun üzvüdür, üçü isə bu yolu tutub. Mən Moldova, Gürcüstan və Ukraynanı nəzərdə tuturam. Avropa Birliyinin Şərq tərəfdaşlığı proqramı da geopolitik keçid forması kimi nəzərdə tutulub. Yəni bu prosesin yumşaq, mərhələli getməsi üçün nəzərdə tutulan bir layihədir. İlk mərhələdə Rusiya buna müqavimət göstərmək iqtidarında deyildi. Amma 2005-ci ildən başlayaraq Rusiya toparlandı və bu prosesə ciddi müqavimət göstərməyə başladı. Mən həmişə bu tarixi 13 may Əndican hadisələri ilə qırılma nöqtəsi kimi göstərirəm. O vaxta Özbəkistanda etiraza qalxmış əhalinin iri çaplı pulemyotdan atəşə tutulması baş verdi. Bundan sonra Azərbaycanda nazirlərin həbsi və Rəsul Quliyevin ölkəyə qayıdışının dayandırılması ilə artıq postsovet məkanında əks bir dalğa-antidemokratik dalğa başladı".

**Həmsöhbətimiz vurğuladı ki, geopolitik qarşıdurma artıq Azərbaycanı da əhatə edir. Artıq hər iki tərəf Azərbaycandan sərt şəkildə tərəf seçməsini, mövqe bildirməsini tələb edir:** "Bütün MDB ölkələrindən fərqli olaraq yalnız Azərbaycan mövqe bildirmək istəmir, neytral qalmaq istəyir. Azərbaycan düşünürdü ki, neytral qalmaqla, strateji seçim etməməklə hər iki tərəfdən təzyiqləri azaldacaq. Xatırlayırsınızsa, biz deyirdik ki, bu, tam tərs effekt verəcək. Əgər sən neytral qalmaq istəyəcəksənsə hər iki tərəfdən basqı görəcəksən. İndi həmin dövrü Azərbaycan yaşayır. Həm Rusiyanın ortada böyük strateji layihəsi-Avrasiya İttifaqı layihəsi var, eyni zamanda Avropa Birliyinin assosiativ saziş və Azad Ticarət zonası haqqında müqavilə məsələsi qarşıda durur. Ona görə də bir tərəfdə ABŞ, Avropa Birliyi, digər tərəfdə Rusiya, İran arasında Azərbaycan sıxılmış vəziyyətdədir. Hər iki tərəfdən də təzyiqlərin getdikcə, şiddətlənməsi gözləniləndir".

Bəs, prosesin bu şəkildə gedişi Qərbin Azərbaycanda demokratik qüvvələrə dəstək verməsini şərtləndirə bilərmi?

**S.Əkbər qeyd etdi ki, Azərbaycan hakimiyyəti və Rusiya prosesin bu şəkildə gedişində Avropa Birliyinin, ABŞ-ın demokratik qüvvələrə dəstək verə biləcəyindən narahatdır. Ukraynada Yanukoviçin devrilməsi təcrübəsi ortada var:** "Rusiya digər ölkələrdə "narıncı inqilablar"ın qarşısını almaq üçün həmin ölkələrin rəhbərliyi ilə koordinasiyalı fəaliyyət göstərir.

Qərb də cavabsız qalmayacaq. Ona görə də yaxın perspektivdə həm bütövlükdə postsovet məkanında, həm də konkret Azərbaycan daxilində geopolitik qarşıdurma şiddətlənəcək. Tərəflərdən hansı hansı müddətdə üstün gələcək bunu söyləmək çətindir. Amma strateji planda demokratiyanın qalib gələcəyi şəksizdir. Çünki qarşı duran tərəflərin potensialı müqayisəolunmaz dərəcədə fərqlidir. ABŞ-la Avropa Birliyinin ümumi daxili məhsulu 34,2 trilyon dollardır, Rusiyanın isə ümumi daxili məhsulu isə 2 trilyon dollardır. Sonucda kimin qalib gələcəyi aydın görünür. Sadəcə zaman məsələsi var".

**S.Əkbər onu da dedi ki, hazırkı mərhələdə Azərbaycan müxalifətinə hər hansı şəkildə dəstək olduğu müşahidə edilmir:** "Ola bilsin ki, hansısa planlar, layihələr nəzərdə tutulub, amma konkret onların həyata keçirilməsini görmürəm. Ola bilsin ki, Avropa Oyunlarından sonra görünməyə başlasın və ya Avropa Oyunlarının birbaşa ərəfəsində, oyunların gedişində. Bu gün isə ciddi əlamətlər görünmür".

❑ Etibar SEYİDAĞA

# Müsavat, AXCP və REAL rəhbərləri Britaniya səfirliyində

**Mayın 1-də Böyük Britaniyanın Bakıdakı səfirliyində həmin ölkənin Xarici İşlər Nazirliyi Cənubi Qafqaz Şöbəsinin rəisi Emma Beynslə Azərbaycanın müxalifət təşkilatlarının rəhbərlərinin görüşü keçirilib. Bu barədə Müsavat Partiyasından musavat.com-a məlumat verilib.**

Məlumatda deyilir ki, Müsavat Partiyasının başqanı Arif Hacılı, AXCP sədri Əli Kərimli və REAL Hərəkatının icra katibi Natiq Cəfərlinin iştirak etdiyi görüşdə Azərbaycandakı ictimai-siyasi durum, siyasi məhbuslarla bağlı vəziyyət, Bakı 2015-Avropa Oyunları, payızda keçirilməsi nəzərdə tutulan parlament seçkiləri və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Britaniya səfirinin müavini Stefen MakKormik iştirak edib.

Müsavatdan verilən daha bir xəbərdə deyilir ki, Müsavat Partiyası Azərbaycanda siyasi məhbuslar mövzusunda Dəyirmi Masa təşkil etmək barədə qərar qəbul edib. Dəyirmi Masa may ayının 5-də saat 16.00-da Müsavat Partiyasının qərargahında keçiriləcək.

❑ E.SEYİDAĞA





# İqtidardan müxalifətə Avropa Oyunları təklifi - görüş olacaqmı?

## "Azadlıq-2015"-ə daxil olan partiyaların sədrləri təcili toplaşdı; yekun qərar partiyaların rəhbər orqanlarında aparılan müzakirələrdən sonra veriləcək; Müsavata dəvət gəlməyib...

**Mayın 1-də Azərbaycan prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun adından bu ay siyasi partiyalarla növbəti görüşün keçirilməsi barədə bir sıra partiyaların rəhbərlərinə təklif göndərilib.**

Bu barədə musavat.com-a daxil olan xəbərdə deyilir ki, növbəti görüşdə müzakirəyə çıxarmaq üçün bir neçə mövzu da təklif edilib.

Əli Həsənovun adından daxil olan təklifin müzakirəsi ilə bağlı mayın 1-də saat 16.00-da Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) qərargahında "Azadlıq-2015" seçki blokuna daxil olan partiyaların rəhbərlərinin növbədənkənar toplantısı keçirilib. Blokun yaydığı rəsmi açıqlamada bildirilir ki, toplantıda Prezident Administrasiyasının may ayının 13-16-da - "I Avropa Yay Oyunlarına münasibət" mövzusunda siyasi partiyalarla növbəti görüş keçirilməsi təklifi müzakirə edilib: "Müzakirələr zamanı toplantıya fəaliyyət göstərən bütün qeydə alınmış və qeydə alınmamış siyasi partiyaların dəvət ediləcəyi barədə tədbir təşkilatçısı kimi çıxış edən Prezident Administrasiyası ictimai-siyasi şöbəsinin mövqeyi diskussiyalara səbəb olub. Eyni zamanda əvvəlcədən əldə olunan razılığa uyğun olmayaraq, mövzunun bir tərəfli qaydada müəyyənləşdirilməsi bu tədbirin məqsədi ətrafında qeyri-müəyyənlik yaratmasından narahatlıq ifadə olunub. Bunları nəzərə alaraq, müzakirələrin siyasi partiyaların yetkili orqanlarında davam etdirilməsi və yalnız bundan sonra qərar verilməsi məqsədəuyğun hesab olunub".

Qeyd edək ki, fevralın 12-də keçirilən görüşdə iştirak üçün Prezident Administrasiyasından Müsavat Partiyasının başqanı Arif Hacılıya da zəng edilərək dəvət gəlmişdi. Müsavat Partiyasının rəhbər strukturunda məsələ müzakirə olunmuşdu və ölkədə siyasi məhbus probleminin həll olunmadığı əsas göstərilərək görüşə qatılmamaq məqsədəuyğun sayılmışdı. Növbəti görüş üçün Müsavata dəvət gəlib-gəlmədiyini araşdırdıq. **Partiya başqanı Arif Hacılı** bildirdi ki, onlara dəvət və ya təklif gəlməyib. "Dəvət olacağı halda görüşə qatılacaqsınızmı?" sualına isə A.Hacılı belə cavab verdi: "Bu sahədə bir yenilik olsa mediaya açıqlama verəcəyik. Hələ dəvət olmayıb".

**Xatırladaq ki, Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovla siyasi partiyaların sonuncu - ikinci görüşü fevralın 12-də olub. Həmin görüşdə bundan sonra görüşlərin iki aydan bir keçirilməsi və müzakirəyə çıxarılacaq mövzunun tərəflər arasında razılıq əsasında müəyyənləşdirilməsi barədə razılıq əldə olunmuşdu. Lakin aradan üç aya yaxın keçsə də, nədənsə görüş nəzərdə tutulduğu vaxtda keçirilmədi.**

❑ **Etibar SEYİDAĞA**

# Rauf Mirqədirovun həbs müddəti yenə uzadıla bilər

## İntiqam Əliyev və Rəsul Cəfərova verilən hökmdən apelyasiya şikayəti veriləcək; Taleh Xasməmmədovun da məhkəməsi başlayır



Rauf Mirqədirov



Taleh Xasməmmədov

**"Hazırda həbsdə olan "Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun həbs müddəti yenidən uzadıla bilər. Apreldə həbs qətimkan tədbirinin müddət bu ayın 20-də tamam olur. İstintaq hərəkətlərinin aparılmaması müddətin artırılacağını deməyə əsas verir. Əgər belə olarsa, R.Mirqədirovun istintaqı beşinci dəfə uzadılacaq".**

Bu barədə jurnalistin vəkili Elmar Süleymanov musavat.com-a açıqlamasında dedi. O, həbs müddətinin artırılması ehtimallarının yüksək olduğunu söylədi: "Təəssüflər olsun ki, hələ də bir yenilik yoxdur. Keçən ay istintaq müddətini bir ay uzatdılar. Yəqin ki, yaxın günlərdə yenidən uzadacaqlar. Rauf bəylə keçən həftə görüşdüm. Həbs müddətinin uzadılması ilə bağlı narahatçılığını bildirdi. Məhkəmədə qeyd etdi ki, heç bir iş görmədən yalnız vaxtı uzatmaqla məşğulsunuz. Yalnız onu deyə bilərəm ki, yaxınlarda məhkəməsi gözlənilmir. Leyla Yunusla bir işdir. Yəqin ki, eyni vaxtda başlayacaq. Amma iş birləşdirilməyib".

**Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin** hökmündən Apelyasiya Məhkəməsinə müraciət olunacaq. Vəkillər hökm qərarını məhkəmədən alıblar. **Vəkil Fəxrəddin Mehdiyev** yaxın günlərdə şikayəti məhkəməyə təqdim edəcəklərini qeyd etdi: "Hökm qərarını artıq götürmüşük. Məhkəmənin iclas protokollarını oxuyub, qeydlər edəcəyik. Yəqin ki, növbəti həftə şikayətimizi təqdim edəcəyik. 15 gün müddətində baxılmalıdır".

**Müsavat başqanının müavini Fərəc Kərimliyə** mayın 6-da hökm oxuna bilər. Vəkil Nemət Kərimli müdafiə tərəfi və təqsirləndirilən şəxsin son sözünün qaldığını söylədi: "Mayın 6-da proses müdafiə çıxışları ilə davam edəcək. Sonra Fərəc Kərimli son söz deyəcək. Yəqin ki, məhkəmə müşavirəyə gedəcək. Həmin gün hökmün elan olunacağı gözlənilir. Təcrübəyə əsasən deyə bilərəm ki, hökm oxunacaq".

Nemət Kərimli müsavatçı gənc Sirac Kərimliyə verilən hökmdən apellyasiya şikayəti verdiklərini də qeyd etdi.

Üzümüzə gələn həftə İnsan Haqları Klubunun sədri Rəsul Cəfərova verilən hökmdən Apelyasiya Məhkəməsinə müraciət olunacaq. Bu barədə hüquq müdafiəçisinin hüququ nümayəndəsi Günay İsmayılova məlumat verdi. O, Rəsul Cəfərovun heç nədən şikayətlənmədiyini, hər şeyin qaydasında olduğunu söylədi.

**"Bizim yol" qəzetinin əməkdaşı Pərviz Həşimli** ilə bağlı kassasiya şikayəti verilib. Jurnalistin vəkili Bəhruz Bayramov may ayında veriləcək əfvə inanmadıqlarını bildirdi: "Telefonla danışıb. Hər şey qaydasındadır. İki həftə olar ki, kassasiya şikayəti vermişik. Baxılma vaxtı məlum deyil. Açığı bu ay veriləcək əfvdə Pərviz bəyin azadlığa çıxacağına inanmıram".

**NİDA-çı gənc Ömər Məmmədovun atası Əlyar Məmmədov** da əfvlə bağlı ümidsiz danışdı: "Mayın 3-də görüşəcəyik. Telefonla əlaqə saxlayırıq. Əfvə ümidli deyil. İnsan ümidsiz hala düşür. Dekabr və mart aylarında inamımız var idi. Amma indi görürük ki, həbslər davam edir. Dövlətdə humanizm hiss olunmur. Əksinə qəddarlıq hiss olunur. Valideyn kimi istərdik övladımız azad olunsun. Ümidimiz həyata keçməyəndə çox pis oluruq. Ona görə də, istəmirik depressiya düşək".

**Fevralda Göyçayda həbs olunan hüquq müdafiəçisi Taleh Xasməmmədovun isə gələn həftə məhkəməsi olacağı gözlənilir. Bu barədə musavat.coma onun yaxınları məlumat verdilər:** "Onu iki gün öncə Gəncə İstintaq Təcridxanasından Göyçay Rayon Polis Şöbəsinin təcridxanasına köçürüblər. Bunu belə izah edirlər ki, istintaq yekunlaşır və gələn həftə iş məhkəməyə gedəcək. Amma məhkəmənin günü barədə dəqiq məlumat verilmir. İşçi Qrupdan Talehin durumunu diqqətdə saxlamağı xahiş edirik".

❑ **Cavanşir ABBASLI**



# "Parabank"ın İdarə Heyətinin rəhbəri "yoxa çıxıb"...

## "Vəli Quliyevi müştəriləri və öz işçiləri çıraqla axtarırlar"

**"Parabank"ın İdarə Heyətinin sədri Vəli Eldar oğlu Quliyevi müştəriləri və öz işçiləri çıraqla axtarırlar". Bu haqda redaksiyamıza bankın müştərilərindən biri göndərdiyi məktubda yazıb.**

Bank müştərisi qeyd edir ki, devalvasiyadan sonra banklarla aralarında yaranmış problemi rəhbərliklə həll etməyə çalışsalar da, günlərlə qapılarda qalırlar. "Parabank"ın mərkəzi ofisinə yaxınlaşan müştərilər V.Quliyevi yerində tapa bilmirlər: "Bizə deyirlər ki, Vəli Quliyev işə gəlmir. Ordan-burdan eşidirik ki, gənc bank sədri kef məclislərini, istirahəti çox sevir. Profilində yerləşdirdiyi şəkillərdən görünür ki, Vəli Quliyev öz kef-damağından qalan deyil. Böyük bir bankın idarə heyətinin sədrinin vətəndaşlara, işçilərinə laqeyid münasibət göstərməsi bu imkanlı gəncin saymazlığından xəbər verir. Bu gün vətəndaşların banklardan aslı olduğu və problemlərlə üzləşdiyi vaxtda bankların rəhbərlərinin yerində olmaması və vətəndaşlara yuxarıdan aşağı baxması dözülməz haldır. Müştərilərin ödədiyi yüksək faizli kreditlərin hesabına Vəli Quliyev kimilər gedib kef çəkirlər, amma insanlara saygısız yanaşırlar. Əldə etdiyimiz məlumata görə Vəli Quliyevi sədr vəzifəsinə atası Eldar Quliyev təyin edib. Eldar Quliyev "Parabank"ın Müşahidə Şurasının üzvüdür. Belə ehtimal etmək olar ki, atası Vəli Quliyevə inandığından bankı idarə etməyi ona həvalə edib. Faktiki isə V.Quliyevdən nə müştərilər, nə də işçilər razıdır. V.Quliyev müştərilərinə qarşı olduqca qəddar olması xüsusi qeyd olunur. Bankın İdarə Heyətinin sədri olan şəxs profilinə qoyduğu şəkilindən aydın görünür ki, bu şəxs hələ də böyük bir kollektivə rəhbərlik etdiyinin, minlərlə müştərilərlə işləməsinin fərqində deyil. Böyük bir banka rəhbərliyi görün kim həyata keçirir. Mərkəzi Bankın banklara nəzarətinin hansı səviyyədə olması "Parabank"ın timsalında sübut olunur. Mərkəzi Bankın rəhbərliyi "Parabank"la bağlı araşdırma aparsa, vəziyyətin dəyişəcəyi də gələn məlumatlar sırasındadır".

❑ **E.HÜSEYNOV**

**P.S.** "Parabank"ın mövqeyini dərc etməyə hazırıq.

YENİ MÜSAVAT
N 94 (6122) 2 may 2015



# Həmrəylik institutu yoxdursa...

**Hüseynbala SƏLİMOV**

**80-ci illərin əvvəllərində sovet funksionerləri birdən-birə həmkarlar təşkilatlarını yada salmışdılar. Bəli, müşavirələr keçirilir, "həmkarların sovet cəmiyyətində durmadan artan rolu"ndan ağızdolusu danışırdılar.**

Təbii ki, əvvəllər bunun səbəblərini bilmirdik. Sonradan məlum oldu ki, bu, Polşadakı proseslərlə bağlı idi. "Dəmir pərdə" nə qədər qalın, gülləkeçirməz olsa da, hər halda, müəyyən informasiyalar sızırdı...

O vaxtlar da, necə deyərlər, əsl vaxtlar idi. Polşada "Həmrəylik" hərəkatı aləmi bir-birinə qatmışdı. Sovetlərin də bir şakəri vardı. Bir problem yarananda onu güc vasitələrilə boğurdular. Sonra da həmin problemi götürüb bir siyasi şou düzəldirdilər, sanki bu vaxta qədər bunlar elə bu haqda düşünürlərmiş...

Qərəz, sovetlərin həmkarları necə vardısa, eləcə də qaldı. Təkcə Polşa qalmadı. Az sonra bütün sosialist düşərgəsində böyük proseslər vüsət aldı və bir də ayılıb gördük ki, dəyişikliklər 15 respublikanın da kandarını kəsdirib...

Bəli, xoş may günlərində bunları düşünməyim heç də təsadüfi olmadı. Cəmi bircə gün əvvəl sovetlərin ən möhtəşəm bayramlarından biri-1 may idi...

Elə əvvəldə həmkarları xatırlamağım da təsüdüfi deyildi. Əgər əsl həmkarlar institutu yoxdursa, zəhmətkeşlərin hüquqlarını qoruyan bir təşkilat yoxdursa, o halda zəhmətkeşlərlə hansı həmrəylikdən danışmaq olar?..

Qərəz, hər şey əslində formal idi. Rəsmi ideologiya şoular düzəldirdi. Onlardan biri də 1 may idi. İndi doğrusu, adam istəyir ki, bir azacıq yalan danışsın və özünü az qala lap uşaqlıq çağından (beziləri kimi!) sovet rejiminin qatı əleyhdarı kimi göstərsin. Amma bacarmırsan. Bir də ki, buna ehtiyac varmı?..

Etiraf edim ki, biz uşaqlar o vaxt mayın 1-ni səbrsizliklə gözləyirdik. Əvvəla, həmin gün dərslər olmurdu, bayram və mütləq də nümayiş keçirilirdi...

Biz də yazın bu ilk gününə xüsusi hazırlaşırdıq. O hazırlıqları ki, "böyük əmi"lər, məktəb müəllimləri və direktorlar, bir sözlə, yaşlılar görürdü, onların bizə heç bir dəxli yox idi. Başımızı ağrıdan o idi ki, nümayişdən əvvəl həmişə məşqlər olurdu- bizə palkat tutmağı və tribuna önündən keçməyi öyrədirdilər.

Bəli, yaşlı insanlar namyişdə iştirak etmək üçün bizi indiki Şirvan şəhərinə aparırdılar. Orada əlimizə düzəltdikləri portretləri və plakatları verərək tribuna önündən keçirdirdilər...

Amma bu bayramla bağlı bizim məxsusi "hazırlıqlarımız" olurdu. Hələ mayın 1-nə bir neçə gün qalmış valideynlərdən bir az pul qoparırdıq...

Sonra da nümayişi bir təhər, tələsik başa vuraraq mağazalara cumur və bir az kolbasa, bir az da çaxır alaraq Hacıqabulla indiki Şirvan arasındakı təpəciklərdən birinə çəkilirdik və orada kolbasadan yeyib üstündən də çaxır içərdik və beləcə, "zəhmətkeşlərin bayramı"nı "qeyd" edirdik...

Biz "xoşbəxt və gənc qul"lar idik. Özümüz də fikirləşirdik ki, dünyada kapitalist olmaqdan böyük xoşbəxtlik yoxdur-bəli, təsəvvür edin ki, minlərlə insan sizin üçün işləyir...

Bizim sahibkar dünyası ilə bağlı bilgilərimiz bu qədər idi. Axı biz o vaxt əsl sahibkar bir yana, faktiki olaraq mülkiyyətçi də görməmişdik- o dövrdə insanların uzağı, bir bağçası olardı və hamı da deyərdi ki, maşallah, filankəsin yaxşı bağı var...

İlk dəfə kapitalist dünyası haqqındakı təsəvvürlərim bir filmdən sonra dəyişməyə başladı, daha doğrusu, sovet təsəvvürlərim azca laxladı. Hələ də o filmin necə nümayiş etdirilməsi haqqında düşünürəm...

Qərəz, filmdə belə bir epizod vardı. Böyük kapitalist, onlarla zavodu və müəssisəsi olan bir insan oğluna deyir: "Sən elə bilirsən bu, mənim üçündür? Yox, bunlar Almaniya üçündür, onun insanları üçündür. Mənə qalsa, gündə 12 marka da bəs edir...".

"12 marka" söhbəti məni çox düşündürdü. Sonra da yavaş-yavaş başqa detallar gəldi. Məlum oldu ki, ABŞ milyardçıları tətillərdə uşaqlarının boş-boş avaralanmaması üçün onları öz şirkətlərində kiçik işlərdə işlədirlər...

Sonra həyat elə gətirdi ki, kapitalizmi də gördük. Dərhal sual yarandı: axı, kim deyir ki, sahibkarlar işləmir, çalışmır?..

Bəlkə də hansısa azərbaycanlı oliqarx məmur həqiqətən də çalışmır, bizneslə məşğul olmaq əvəzinə durub siyasətlə məşğul olur, çünki onun biznesi siyasət üstündə qurulub- vəzifə varsa, biznes də var...

**Əsl sahibkar, əsl işçi isə çalışır, özü də hər gün, hər saat çalışır. Belə olmasaydı onda kapitalist ölkələrindəki firavanlıq olmazdı və onlardan söhbət düşəndə biz də köks ötürməzdik...**

---

**Bakı ilə Vaşinqton arasında kiçik pauzaları çıxmaq şərti ilə tez-tez pozulan "atəşkəs"i hazırda açıq-aşkar "səngər döyüşləri" əvəzləyir. Əvvəllər Azərbaycanın rəsmi şəxslərinin mövqelərini və dövlət qəzetlərinin kəskin yazılarını bir qayda olaraq sükutla qarşılayan ABŞ artıq reaksiyalarını artırmağa, hətta qəzet yazılarına da münasibət bildirməyə başlayıb.**

# Demokratik qüvvələrdən Bakı-Vaşinqton savaşına ilginc reaksiyalar

Son zamanlar davamlı şəkildə ABŞ-ın Azərbaycanda hakimiyyət çevrilişi həyata keçirmək planları barədə səslənən mövqelərə Administrasiya rəsmisi Novruz Məmmədovun "Azərbaycanda keçiriləcək Avropa Oyunları ərəfəsində bizə elə kütləvi hücum başlayıb ki, biz bunu təsəvvür edə bilmirik. Bəlkə olimpiada bitərdi, sonra başlayardılar. Biz bildiklərimizin hamısını sizə desək, heyrətə gələrsiniz. Azərbaycanı Liviya, Suriya dövlətinə çevirmək istəyirlər" deməsi vəziyyətin çox kritik olduğunu deməyə əsas yaradır. Üstəlik, ABŞ dövlət katibi Con Kerrinin demokratiya və insan hüquqları məsələləri üzrə köməkçisi Tom Malinovskini Azərbaycana göndərmək qərarını verməsi durumun dramatikliyindən xəbər verir. Hesab olunur ki, davamlı şəkildə Amerikaya, onun prezidenti və dövlət katibinə ünvanlanan kəskin ittihamlar Vaşinqtonu hərəkətə keçməyə, Bakı ilə yanmaqda olan körpüləri bərpa üçün nümayəndəsini göndərməyə vadar edib. Mötəbər mənbələrdən verilən məlumata görə, səfərdə məqsəd Azərbaycanda insan hüquqları, demokratiya və vətəndaş cəmiyyətinin problemləri ilə bağlı rəsmilərlə müzakirələr aparmaqdır. Həmçinin Azərbaycanda vətəndaş cəmiyyətinə və Qərb institutlarına qarşı repressiya dalğası fonunda iki ölkə arasındakı münasibətlərdə yaranmış hazırkı problemlərə də toxunulacaq.

İki paytaxtın savaşına müxalifətin reaksiyası da maraq doğurur. Maraqlıdır, Azərbaycan müxalifəti Azərbaycana təzyiqlərə dəstək verir, yoxsa bu məsələdə iqtidarın mövqeyini bölüşür? Ümumiyyətlə, Malonivskinin Bakı səfərindən müxalifət nə gözləyir?

**Müsavat Partiyası başqanı Arif Hacılı** bildirdi ki, Azərbaycan hakimiyyəti adətən, seçkilər ərəfəsində bu tipli məsələləri ortalığa atır: "Son günlər müzakirə olunan Amerikanın planı mövzusu bir tərəfdən Avropa Oyunları, digər parlament seçkiləri ərəfəsində Ortaya atılan bir şoudur. Məncə, bu şou əvvəlkilərə nisbətən daha primitiv şəkildə hazırlanıb. Əslində bu tipli layihələrin həyata keçirilməsi nə Azərbaycan hakimiyyətinin, nə Azərbaycan dövlətinin maraqlarına uyğun deyil. Çünki biz xüsusilə Qarabağ problemi ilə məşğul olan dövlətlərin siyasətinə nəzər yetirsək, görərik ki, bu məsələlərdə daha loyal, Azərbaycanın maraqlarına yaxın olan mövqeni ABŞ həyata keçirir. Elə "erməni soyqırımı" məsələsi ilə bağlı son proseslərdə də şahidi olduq ki, ABŞ Rusiya və Fransaya nisbətən daha konstruktiv mövqe tutdu. Lakin Azərbaycan hakimiyyəti



**Arif Hacılı:**
**"Əslində bu tipli layihələrin həyata keçirilməsi nə hakimiyyətin, nə də Azərbaycan dövlətinin maraqlarına uyğun deyil"**



**Sərdar Cəlaloğlu:**
**"Qərb və Amerika Azərbaycanda demokratiya qurmaq istəyirsə, bizim nə istədiyimizə qulaq asmalıdır"**

ölkənin maraqlarını nəzərə almadan öz xarici siyasətində bu tipli addımlar atır ki, bu da Azərbaycanın gələcəyi üçün yaxşı heç nə vəd etmir".

Müsavat başqanı düşünmür ki, ABŞ-a qarşı aparılan bu kampaniya bundan sonra da davam edəcək: "Görünür, hakimiyyət yaxın vaxtlarda ABŞ-la münasibətlərin yaxşılaşdırılması istiqamətində addımlar atacaq".

**Amerikalı diplomatla müxalifətin görüşmək niyyəti varmı və ümumiyyətlə, belə bir dəvəti gözləyirmi? A.Hacılı:** "Biz görüş üçün açığıq və əgər müraciət olunacaqsa, görüşəcəyik".

"ABŞ-ın Azərbaycanda demokratiya ilə bağlı mövqeyi səhvdir. Kerrinin bəyanatı və bu qəbildən olan cəhdlərin heç biri Azərbaycanda demokratiyaya xidmət etmir. Azərbaycanda faktiki olaraq Qərbin və Amerikanın "demokratiyaya dəstək" adı altında atdığı addımlar demokratiyanı boğur. Hökumətə təzyiq adı altında etdiyi hərəkətlər isə situasiyanı gərginləşdirir". Bunu isə ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi. Onun sözlərinə görə, bu baxımdan Qərb, o cümlədən Amerika əgər Azərbaycanda demokratiya qurmaq istəyirsə, bizim nə istədiyimizə qulaq asmalıdır, özlərinin bizə verdiyinə yox. Vaxtilə Cənubi Amerikada da belə bir şey olmuşdu. Amerikanın məşhur siyasi xadimlərindən biri demişdi ki, amerikanlar özləri demokratiyaya gətirən yolun planını itiriblər. Bizə də elə planlar təklif edirlər ki, o yolla demokratiyaya gəlmək olmaz. Bu gün də Kerrinin olimpiadanın boykot edilməsi kimi məsələlər Azərbaycanda sosial iqtisadi vəziyyəti o qədər ağırlaşdıra bilər ki, siyasi hüquqlar heç insanların ağlına da gəlməz, vəziyyət bundan da qat-qat pis olar. Ona görə də Amerikanın mövqeyi yanlışdır".

**O ki qaldı hökumətin Amerika əleyhinə bəyanatlarına, S.Cəlaloğlu qeyd etdi ki, bu da yanlışdır:** "Azərbaycan bilməlidir ki, hansı geopolitik durumdadır, beynəlxalq konyuktura necədir, hansı güclər burda oyun oynayır. Əgər Azərbaycan dövlətinin və xalqının maraqlarını güdürlərsə, bəzi təzyiqləri doğrudan da obyektiv nəzərə alıb iradları aradan qaldırmalıdırlar. Yoxsa dünya ilə ləliklə, Azərbaycan ikibaşlı uduzur: "Hökumətə təzyiq dövlətə və cəmiyyətə təzyiqə çevrilir. Müxalifətə dəstək isə müxalifətin istədiyi dəstək olmadığı, yaxud ən azı hədəfi olmadığı üçün heç bir mənfəəti yoxdur. müharibə etmək, bu tərəfdən Rusiya, o tərəfdən Avropa ilə üz-üzə gəlmək Azərbaycan kimi kiçik bir dövlətin davranışlarına uyğun deyil. Azərbaycanın elə bir gücü, qüdrəti yoxdur. Bir halda ki, bizim iqtisadiyyatımızın inkişafı da, cəmiyyətimizin, dövlətimizin təhlükəsizliyi də Amerika və Avropadan asılıdır, bunu nəzərə almalıyıq. Ukrayna göz qabağındadır. Bizdən on dəfə böyük ölkədir, resursları da bizdən on dəfə çoxdur, liderləri də bizdən on dəfə ötkəmdir. Amma görün vəziyyət nə yerdədir. Ona görə də Azərbaycanda bu anti-Amerika ovqatı tamamilə yanlışdır. ABŞ-ın da Azərbaycanda demokratikləşmə ilə bağlı mövqeyi yanlışdır. Məgər olimpiadadan qabaqkı neçə illər ərzində Azərbaycanda demokratiya, insan haqları pozulmurdu? Niyə Kerri ağzını açıb bu barədə heç nə deməmişdi? Məgər ancaq Avropa Oyunlarını boykot etməklə Azərbaycan hökumətini demokratikləşməyə məcbur etmək olar? Azərbaycan iqtidarına təzyiq etməyin o qədər mexanizmləri var ki, heç olimpiadanı boykot etməyə ehtiyac yoxdur".

**ABŞ rəsmisinin müxalifətlə görüşüb-görüşməyəcəyi barədə sualı cavablandıran ADP sədri yenə pessimist danışdı:** "Amerikanın son 5-6 illik təcrübəsi ümumiyyətlə, müxalifəti gözardı etmək siyasəti aparır. Məsələn, səfir Azərbaycana gəlib, hələ bir müxalifət lideri ilə görüşməyib. Biz hətta məktub da yazmışıq ki, sizinlə görüşmək istəyirik. Yaxşı, siz bu ölkədə demokratiya, insan haqları ilə maraqlanırsınızsa, demokratiya daşıyıcılarına qulaq asmırsınızsa, onlarla söhbət etmirsinizsə, gedib hansısa bir uzaq dağ kəndində kiminləsə görüşməklə, yaxud 5-10 nəfərlə təmasda olmaqla ölkədəki siyasi hadisələri necə dərk edə bilərsiniz? Yəni bu, onu göstərir ki, ABŞ-ın yüksək rütbəli məmurları da müxalifətlə görüşməyəcək. Görüşəcəksə də, nəzakət xatirinə, Azərbaycan reallıqlarını o qədər də əks etdirməyən bir-iki nəfərlə görüşəcəklər, onların səhv olan təsəvvürlərini bir az da möhkəmləndirəcəklər".

**E.PAŞASOY**

YENİ MÜSAVAT
N 94 (6122) 2 may 2015

**Təqvim tarixində daha bir 30 apreli arxada qoyuruq. 2009-cu ilə qədər Azərbaycan insanı üçün sıradan bir gün olsa da, artıq 6 ildir ki, yaddaşlarımıza acı, dəhşət və nifrətlə yanaşı hakim kəsilmiş bir gün. Bir əsrlik faciələrimizi unudarkən, ya unutmaq istəyərkən yenidən tarixin amansızlığı ilə üzləşdiyimiz gün.**



**Rüfət Muradlı**
Ümid Partiyasının İctimaiyyətlə əlaqələr və Xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini

# 30 Aprel və bir əsrlik terror

Azərbaycanın müasir tarixinə ADNA terroru kimi düşərək 12 günahsızın həyatına son qoyan və insanlıq adına utanc gətirən bu hadisə hələ ki ötən yüz ildə üzləşdiyimiz sonuncu terror hadisəsi kimi də xatırlanır. Əslində isə 1918-ci ilin Mart qırğınından başladı bu terrorun tarixçəsi. Bakı küçələrində, Qubada, Salyanda, Şirvanda, Qarabağda, vətənimizin güneyində minlərlə günahsiz insanın soyqırıma məruz qalması ilə başlandı bu terror. Demokratik Cümhuriyyətimizin süqutu, Azərbaycanın işğalı və "Qırmızı terror"la davam etdi bu qətliamlar. 30-cu illərdə 70 mindən artıq aydınımızı məhv etməklə bizə qarşı daha da azğınlaşdı bu qatillər. Dərbəndi, Göyçəni, Zəngəzuru, Borçalını qoparmaqla yetməyib yüz minlərlə soydaşımızı deportasiya etməklə davam etdi bu terrorlar. Bu gün ermənin sözdə soyqırım iddialarına qahmar çıxan bu insanlıq suçu caniləri 1946-cı ildə Təbriz al qana boyananda Azərbaycana olan nifrətlərini bir daha ortaya qoydular. 20-ci əsrdə insanlığın üz qarası olan Xocalı faciəsi isə bu nifrətin ən aşkar nümunəsi idi. Qarabağın işğalından sonra ölkəmizdə törətdikləri terror aktları isə bu qatillərin Azərbaycan-Türk insanına qarşı nifrətə dayanan "ənənələrinin" səngimədiyinin bariz göstəricisi idi. Təkcə 1994-cü ildə Azərbaycan ərazisində, o cümlədən Bakı Metropolitenində törədilən terror aktları nəticəsində 70-dən artıq insan həlak oldu, yüzlərlə soydaşımız ağır xəsarətlərə məruz qaldı. Və nəhayət 2009-cu ilin 30 aprelində Dövlət Neft Akademiyasında bir əsr davam edən "məşum ənənənin" daha bir qanlı səhifəsi açıldı. Professordan tələbəyədək 12 məsum insanın bir anda həyatına son qoyan dəhşətli terror... Ötən 6 ildə bu qanlı olay haqda nə qədər yazıb, nə qədər danışıb və lənətləsək də, müxtəlif məhkəmə şoularını izləsək də nə yazıq ki, bu cinayətin həqiqi təşkilatçılarının üzə çıxarılması üçün siyasi iradənin şahidi olmamışıq. Bəs davam etməyəcəyini kimsənin sığortalamadığı , bir əsr boyu üzləşdiyimiz qətliamlar qarşısında susqun qalmağa haqqımız varmı?! Tarix və zaman öz hökmünü verəcək əlbət. Bu gün isə... Heç olmasa unutmayaq!..

# Partiya sədri Ramiz Əlizadəni təbrik etdi

**Ümid Partiyası Lənkəran Şöbəsinin sədri Ramiz Əlizadənin 60 yaşı tamam olur. Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Ramiz bəyi yubiley münasibətilə təbrik edib. Təbrikdə deyilir:**



**Hörmətli Ramiz müəllim!**

Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm! Hər şeydən öncə Sizə Uca Allahdan can sağlığı, uzun ömür, şəxsi işlərinizdə və siyasi fəaliyyətinizdə uğurlar arzulayıram.

Siz həmişə ölkəmizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda aparılan mübarizənin ön sıralarında olmusunuz. On ilə yaxındır minlərlə insanın birləşdiyi Ümid Partiyasının sıralarında doğma vətənimizin demokratikləşməsi, azad, firəvan və hüquqi bir dövlətə çevrilməsi üçün mübarizə aparırsınız.

Hər zaman üzərinə düşən vəzifəyə məsuliyyətlə yanaşan, çətinlikdən, təzyiqdən çəkinməyən, başqalarına nümunə ola biləcək bir şəxssiniz

Biz Ümid Partiyası olaraq, işğal olunmuş torpaqlarımızın azad olunması, xalqımızın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, ölkəmizdə ədalətli cəmiyyətin qurulması, dövlətimizin güclü və demokratik prinsiplərlə idarə olunması üçün çalışırıq. Yüz minlərlə vətəndaşımızın arzu və istəyi olan bu ideyaları əminəm ki, Ümid bayrağı altında gerçəkləşdirəcəyik. Çox şadam ki, bu yolda Siz də bizimləsiniz.

Hörmətli Ramiz bəy, bir daha Sizi 60 illik yubleyiniz münasibətilə Ümid Partiyası adından ürəkdən təbrik edir, Uca Allahdan Sizə can sağlığı, firəvan həyat və uğurlar arzulayıram.

**Aprelin 30-u 2009-cu il... Yenə də həmişəki kimi tələbələr, müəllimlər dərsə tələsir. Kimisi dərsinə, kimisi yarımçıq qalmış elmi işinin müdafiəsinə, kimisi də akademiyada nizam-intizam yaratmağa. Doğrudanmı bu gün həmişəki günlərdən idi? Bəlkə elə ölümə tələsirdi bəziləri... Bəlkə elə ölüm özü səsləyirdi?!**



**Tamilla Məmmədova (Qulami)**
Ümid Partiyası Beynəlxalq şöbənin müdiri

# Canlı ölülər çoxdu bu ölkədə...

Deyirlər, ölüm vaxtsız gəlirE Amma bu ölüm o ölümlərdən deyildi! Hansı ölüm idi bəs bu, adı nədir bu ölümün, səbəbi nədir belə gəlməyinin? Qanlı ölüm gətirən güllələr təkcə bu günahsız tələbələrə, müəllimlərə, işçilərə deyil, bütün Azərbaycan gəncliyinə atılan güllə idi. Niyə məhz gənclik? Suallarım tükənmir, qəhər, qəm bir yana, anaların, bacıların artıq göz yaşları laxtalanan torpaqda qaysaq bağlamış bir fəryad olur məmləkətimiz... Bunu qoparsan haray axacaq yer üzünə... Müharibə vaxtı törədilən faciələr, azadlıq üçün coşanda, ürəklərimizi susdurmağa yönəlmiş soyqırımların səbəbi olmasa da, haqqımızı istəyə-istəyə irəli gedərək can qoymuşuqsa yenə də səbəbi var idi... Bəs bu gənclər? Bəs bu ölümün səbəbi? Axı bu hər hansı bir qəza deyil! Bədbəxt ana sadəcə 20-21 yaşa qədər böyüdüb boya-başa çatdırdığı, min bir zəhmətlə oxudub ali təhsil almaq üçün göndərdiyi təhsil ocağından övladının elmin keşikçisi, sənət sahibi olmasını gözləyirdi, toyunu görmək istəyirdi, qanlar içində yerdə əbədi yatmış vəziyyətdə deyil!

Niyə bu açılan yaraların, tökülən qanların, bu xəyanətlərin yanından laqeydcəsinə keçib gedirik? Bütün bunları fikirləşə-fikirləşə, içimizi yeyə-yeyə canlı ölülər çoxdu bu ölkədə... Burada, həyat səhnəsində dəhşətə atılan ilk addımlar üzərində qurulmuş ssenarisi olan bir tamaşa gedir. Biz isə koruq, görmürükE Ya da görürük, sadəcə gözümüz düzü-əyrini seçə bilmir. Artıq oyanmalıyıq. Özümüz-özümüzü oyatmalıyıq. Yaşamaq üçün, insan kimi, vətən üçün yaşamaq üçün dirilməliyik...

Çalışmalıyıq!!!

Bütün bunları yazdıqca bu boyda haqsızlığı cümlələrə sığışdıra bilmirəm. Bu boyda insafsızlıq, vicdansızlıq düşüncə imkanlarımdan kənara sıçrayır... Bütün bunları unutmamalı, namərd olmamalıyıq, əliyalın gənclərə, günahsız insanlara atəş açanları, bu terrorların başında duranları araşdırmalı, təkrarlanmaması üçün çalışmalıyıq, dirçəlməyi bilərək, haqqımızı tələb etməyi unutmamalıyıq!

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

# "Ümid seçkilərə hazırlıq işlərini bir neçə istiqamətdə paralel aparır"

## Taleh Əliyev: "Təkcə bu ay 107 nəfər partiyaya üzv yazılıb"

**2015-ci ilin parlament seçkiləri yaxınlaşır. Parlament seçkilərinə ən ciddi hazırlaşan partiyalardan biri də Ümid Partiyasıdır. Artıq partiyanın bir neçə funksioneri namizəd olacağı seçki dairəsini də açıqlayıb. Seçkilərə hazırlığın vəziyyəti ilə bağlı partiyanın İcra Aparatının rəhbəri Taleh Əliyev mətbuat xidmətinə müsahibə verib. Taleh bəylə müsahibəni oxuculara təqdim edirik.**



***- Taleh bəy, seçki hazırlığı necə gedir, hazırda hansı işlər görülür?***

- Ümid Partiyasının aydın seçki strategiyası mövcuddur. Bu seçki hazırlığı illərdir partiyamızda formalaşan bir ənənədir. Bu il keçiriləcək parlament seçkilərinə də hazırlıq 2014-cü ildə keçirilən bələdiyyə seçkilərindən dərhal sonra başlanıb. Parlament seçkilərinə hazırlıq işlərimiz bir neçə istiqamətdə paralel olaraq aparılır. Bunlar partiya namizədlərinin müəyyənləşdirilməsi və irəli sürüləcəyi dairənin müəyyən olunması, partiyanın yerli strukturlarının gücləndirilməsi və namizədlə yerli sakinlər arasında şəxsi əlaqələrin yaradılmasıdır. İkinci istiqamət digər demokratik qüvvələrlə ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq etməkdir ki, bu istiqamətdə də ikitərəfli əməkdaşlığımızı ADP ilə Qarabağ Bloku çərçivəsində və 125-lər Siyasi Klubu ilə aparırıq.

Təşkilatlanam işi ciddi şəkildə davam etdiririk. Yeni üzvlər qəbul olunur, yeni özək təşkilatları yaradılır, yerli qurumlar tədbirlər keçirir, partiya funksionerləri rayonlara səfər edir, seçkilərlə bağlı yerli təşkilatlara tapşırıqlar verilir, parlament seçkilərində namizəd olacaq şəxslərin müvafiq dairələr üzrə seçki qərargahlarının formalaşması prosesi aparılır. Mərkəzi Qərargahda mütəmadi olaraq namizəd olacaq şəxslərlə partiya sədrinin görüşləri keçirilir. Bu görüşlərdə seçkilərə hazırlığın vəziyyəti, seçki strategiyası və görüləcək işlər müzakirə olunur.

***- Görülən bu işlərin müqabilində hansısa nailiyyətlər əldə olunubmu?***

Aparılan işlərin nəticəsi olaraq son zamanlar partiyaya üzv yazılanların sayı artıb. Təkcə bu ay 107 nəfər Ümid Partiyasına üzv yazılıb. Sevindirici haldır ki, yeni üzvlərin çoxu gənclərdir və onların arasında parlament seçkilərində mübarizə aparmaq iddiasında olan şəxslər də kifayət qədərdir. Həm də bizi seçən gənclərin demək olar ki, böyük əksəriyyəti yüksək intellektual səviyyəyə, dünyagörüşə, elmi potensiala malikdirlər. Onlardan bir neçəsi bildiyiniz kimi bu il partiyada müxtəlif şöbələrə sədr təyin olunublar. Bu gənclər hər həftə müxtəlif mövzularda dəyirmi masalar keçirir, maraqlı diskussiyalar aparırlar. Dəyirmi masalarda partiya funksionerləri də iştirak edir, mövzu ilə bağlı fikirlərini bildirir və öz təcrübələrini gənclərlə bölüşürlər. Bu gənclərin həm elmi potensiallarının artmasına, həm nitq qabiliyyətlərinin inkişafına, həm də siyasətdə püxtələşməsinə səbəb olur. Hər dəfə tədbirlərə yeni-yeni gənclər qatılır.

***- Bu seçkidə şansınızı necə dəyərləndirirsiniz?***

- Seçkilər normal keçiriləcəyi təqdirdə ən azından Ümid Partiyasının parlamentdə fraksiya yaradacaq qədər deputatının olacağına yüz faiz əminəm.

YENİ MÜSAVAT
N 94 (6122) 2 may 2015

# Kreml "sol" əli ilə elə bir oyun qurdu ki...

**Azərbaycan hakimiyyətinə Qərbin siyasi başqıları - xüsusilə məhkəmələrin QHT təmsilçilərinə ağır cəza verməsinə qarşı bəyanatlarının artdığı bir vaxtda Rusiya daha irəli gedərək rəsmi Bakıya qarşı çox hiyləgər planını işə salıb.**




# Putinin Bakıdan intiqamı: 500 milyonluq müqavilə pozulur

## Kreml Avropa Birliyinin ləngiməsindən istifadə edərək Azərbaycanı ciddi bir strateji qaz kartından məhrum edir; Yunanıstanın solçu hökuməti DESFA şirkətinin səhmlərinin SOCAR-a satılması barədə müqaviləni geri oxuyur...

**Məlum olub ki, Kremllə son aylar ciddi anlaşma içərisində olan Yunanıstan hökuməti ölkənin qaz kəmərləri sisteminin operatoru olan DESFA şirkətinin səhmlərinin 66 faizinin SOCAR-a satışına dair 2013-cü ildə bağlanmış müqaviləni pozmağa qərar verib.** SOCAR tərəfindən DESFA-nın səhmlərinin üçdə ikisinin 500 milyon dollara alınmasına dair müqaviləyə bir neçə aydır ki, Avropa Komissiyasının antiinhisar komitəsində ləngidilirdi və Azərbaycan tərəfi bununla bağlı bir neçə dəfə etirazını bildirib. Bəzi müşahidəçilər bunu Avropa Birliyinin Azərbaycana qarşı sanksiya təhdidi kimi qiymətləndirirdi. İddia edilirdi ki, bu, "Şərq Tərəfdaşlıq" Proqramının assosiativ sazişini imzalamadığı üçün Avropa Birliyinin rəsmi Bakıya "yumşaq sanksiyasıdır". Son olaraq mart ayının 23-də müqavilə ilə bağlı son qərarın verilməsi gözlənilirdi, amma bu da baş vermədi. Avropa Komissiyası "fikirləşərkən" isə Rusiya Yunanıstanın solçu hakimiyyəti vasitəsilə bu müqaviləni ümumiyyətlə pozmaq niyyətini ortaya qoyub. Məlum olduğu kimi, Yunanıstanda radikal solçu "Syriza" Partiyasının rəhbərlik etdiyi yeni kabinet yanvar ayında işə başladıqdan sonra baş nazir Tsipras Avropa Birliyi liderlərinin iradəsinə zidd olaraq Moskvaya səfər edərək Vladimir Putinlə görüşdü. Tsipras maddi çətinlik çəkən Yunanıstana Putindən kredit, həmçinin Rusiyanın Avropa Birliyi ölkələrinə tətbiq etdiyi sanksiyanın Afina üçün götürülməsini istəyirdi. Çünki kənd təsərrüfatı ölkəsi olan Yunanıstan bu sanksiyadan ciddi zərər görür. Tsipras eyni zamanda, qaz tədarükündə Afinaya endirim edilməsini də arzulayırdı. Hələ o vaxt belə ehtimallar vardı ki, Putin bu "parçalanmadan" Avropa Birliyi ölkələrinə qarşı istifadə edəcək. Amma necə? Görüşlərlə bağlı xəbərlərdə bildirilirdi ki, Rusiya prezidenti Avropa Birliyi və Azərbaycana bir neçə ay əvvəlki məğlubiyyətinin əvəzini çıxmaq üçün baş nazirdən "Qazprom" şirkətinin Yunanıstanın əsas təbii qaz tədarükçüsü olan "DEPA" şirkətini almaq təklifinə yenidən baxılmasını şərt kimi qoyub! Amma təəssüf ki, nə rəsmi Bakı, nə Brüssel Putinin bu istəyinə qarşı hərəkətə keçmədi, bəlkə də ciddiyə almadı. Putin üçün isə bu, prinsipial məsələ idi və bəlkə də Avropadan çox Azərbaycana gözdağı vermək üçün tarixi fürsət idi. Çünki Yunanıstan DESFA-nın özəlləşdirməyə çıxarılmasından sonra bu şirkətlər uğrunda SOCAR-la bərabər "Qazprom" şirkəti arasında kəskin rəqabət getdi. Azərbaycan bu rəqabətdə Rusiyanı qıcıqlandırmamaq üçün o qədərdə maraqlı deyildi, amma Avropa Birliyi Yunanıstanın o vaxtkı hökumətinə DESFA-nın məhz SOCAR-a verilməsi üçün ciddi təzyiq edirdi. "Qazprom" nəticəni bildiyindən son anda tenderdən çəkildi və oyundan kənarda qaldı. Bu məğlubiyyət isə Putini şübhəsiz ki, bərk sarsıtmışdı. Əlbəttə, bu müqavilənin maliyyəti nəhəng şirkətlər üçün qəpik-quruş olsa da, aydındır ki, Rusiya bu cür strateji bir planın əlindən çıxması ilə barışmayacaqdı.

Yunanıstan Avropa İttifaqının üzvü olduğuna görə bu sövdələşmə ancaq Avropa Komissiyası tərəfindən təsdiqləndikdən sonra qüvvəyə minə biləcəyindən, Rusiya bu ləngimədən özü üçün ciddi vaxt qazandı. Avropa Birliyindən maliyyə və borc məsələlərinə görə küsən Yunanıstanın baş nazirinin Putinin qapısına gəlməsindən də istifadə edərək Kreml Azərbaycanı ciddi bir strateji qaz kartından məhrum etdi.

Qeyd edək ki, SOCAR Yunanıstanın DESFA şirkətinin səhmlərinin 2/3 hissəsinin 500 milyon dollara alınmasına dair razılaşma 2013-cü ilin iyununda əldə edib. Razılaşmanın rəsmiləşdirilməsi bir neçə dəfə təxirə düşüb. Nəhayət, 2014 dekabrın 22-də Afinada Azərbaycan Dövlət Neft Şirkəti ilə Yunanıstanın Dövlət Əmlakını Özəlləşdirmə Fondu (HRADF) arasında bu ölkənin qaz kəmərləri sisteminin operatoru olan DESFA-nın səhmlərinin 65 faizinin alınmasına dair müqavilə bağlanıb.

**Avropanın Rusiyanın qaz asılılığından qurtarmaq üçün yeganə alternativ kimi Azərbaycanı görür. Amma Avropa Birliyi siyasi məqsədlər üçün neçə aydır ləngitdiyi müqavilə faktiki Azərbaycanın və Avropa Birliyinin əlindən çıxır. Avropa Birliyinin bu ləngiməsinin nəticəsi olaraq ortaya çıxan vəziyyət Azərbaycanın məşhur bir atalar misalı yada salır: "Ağıllı fikirləşincə, dəli vurub çayı keçdi..."**

❑ Xəbər xidməti

# ABŞ-da seçki yarışı başlayır - favorit namizədlər artıq var

## Dünyanın ən güclü ölkəsinin birinci şəxsi seçilmək istəyənlər öz iddialarını elan edirlər, qarşıda isə hələ namizədi müəyyən etmək prosesi durur

**Gələn il ABŞ-da növbəti, 58-ci prezident seçkiləri keçiriləcək. Qarşıdakı 4 il ərzində dünyanın ən qüdrətli ölkəsinin birinci şəxsi olmaq uğurunda iddialıların bəzilərinin adları artıq bəllidir: Demokrat Partiyasından hələlik ən ciddi namizədi keçmiş dövlət katibi və senator Hillari Klintondur.**



Hillari Klinton xeyli dərəcədə şanslı namizəd hesab olunur. Eyni zamanda seçiləcəyi təqdirdə ABŞ-da daha bir ilk gerçəkləşəcək, yəni o, ilk qadın prezident olacaq. ABŞ-ın hazırkı prezidenti Barak Obama artıq öz partiyadaşı və sabiq kabinet üzvü Klintonun namizədliyini dəstəkləyib.

Ancaq ABŞ qanunlarına görə, xanım Klinton partiyasının namizədi olmaq üçün digər namizədləri üstələməlidir. Demokrat Partiyasından isə digər iddialılar da var - müstəqil senator Berni Sanders 2016-cı il seçkilərində Demokrat Partiyasından namizədliyə iddiasını elan edib. Başqa bir iddialı Meriland ştatının keçmiş qubernatoru Martin O"Malleydir.

ABŞ prezidentliyinə respublikaçı iddialıların da bəziləri məlumdur. Respublikaçıların mühafizəkar qanadına mənsub Texas senatoru Ted Kruz artıq prezidentliyə namizədlik üçün iddialı olduğunu elan edib. Sosial şəbəkədən namizədlik anonsu verən senatorun mühafizəkar qanadda dəstəyinin olduğu deyilir. O, Barak Obamanın səhiyyə islahatları paketinə qarşı Senatda dayanmadan 21 saat çıxış etməsi ilə medianın gündəminə düşmüşdü.

Daha bir respublikaçı namizəd Buş ailəsinin üzvü, Florida ştatının keçmiş qubernatoru Ceb Buş ola bilər. Prezidentlər ailəsindən olan Ceb Buşun adı mediada "Ağ evə tanış soyad" kimi təqdim olunur. Qərb mətbuatında ABŞ prezidentliyinə başqa bir iddiaçının Florida ştatının senatoru Mark Rubio olduğu qeyd olunur. Respublikaçılardan başqa bir namizəd iddiaçının Karli Florina olacağı gözlənilir.

Siyasi müşahidəçilər ABŞ-da növbəti prezident seçkilərinin xeyli dərəcədə rəqabətli olacağını qeyd edirlər. Məsələ burasındadır ki, Obama Corc Buşu ağır Əfqanıstan, İraq müharibəsində respublikaçıların ciddi nüfuz itkisi yaşadığı bir zamanda əvəz etmişdi. Həmin vaxt məhz aramsız müharibələr və Vaşinqtonun ünvanına sərt tənqidlər geniş yayılmışdı. Ancaq indi vəziyyət demək olar, "bərabərdir". Obamanın dönəmində Amerikanın daxilində miqrant problemləri (xüsusən də Latın Amerikasından gələn ispandilli əhali hesabına), sosial problemlər, eləcə də xarici siyasətdə ABŞ-ın cəlb olunduğu və bir çoxunda uğursuzluğa düçar olduğu ciddi problemlər hələ də həllini tapmayıb. Rusiya ilə münasibətlər, Ukrayna, Suriya, İraq, Yəmən böhranı və sair. Eləcə də "ərəb baharı" nəticəsində ABŞ üçün mühüm əhəmiyyət kəsb edən Yaxın Şərqin mürəkkəb siyasi və hərbi vəziyyətə düşməsi Obamaya qarşı tənqidlərin əsas hədəfidir. İŞİD böhranı, Liviyada ABŞ səfirinin öldürülməsi kimi hadisələr demokratlar üçün "səs itkisi"nə səbəb ola biləcək amillərdir.

Ötən 8 il ərzində hakimiyyətdə demokratlar olub və bu mənada seçkilərdə güclü namizədlə iştirak edəcəkləri təqdirdə respublikaçıların qazanmaq şansı yüksəkdir. Nəzərə almaq lazımdır ki, ötən dövrdə aralıq seçkilərdə respublikaçılar üstün nəticə göstərə biliblər. Hələlik namizədlər bəlli olmadığı üçün gələcək seçkilərdə kimin hansı amillərə görə, şanslı olduğunu qeyd etmək bir az çətindir. Ancaq ekspertlərə görə, Ceb Buş hər nə qədər Buş ailəsi "müharibəli dönəmini" xatırlatmaqla yanaşı, eyni zamanda siyasi dairələrə, mühafizəkar qruplara yaxın olması, eləcə də həyat yoldaşının meksikalı olması səbəbindən Latın Amerika əsilli seçicilərə yaxınlığı amili də respublikaçılar üçün üstünlük sayılır.

Ancaq 8 illik hakimiyyət dövründə Obamanın da bir sıra uğurları olub. Ölkə daxilində məcburi tibbi sığorta qanunu, o cümlədən Usama bin Ladenin öldürülməsi, ABŞ ordusunun İraq, Əfqanıstan kimi bölgələrdən çıxarılması (baxmayaraq ki, bəzilərinə görə, bu addım zərərli idi - K.R) və sair kimi bir sıra hadisələr var ki, demokratların dəstək qazanmasında əsas vasitələrdən biri ola bilər. Bundan başqa, dünyada yaranan iqtisadi böhranlara rəğmən Amerika iqtisadiyyatı 2010-cu ildən bu yana böyüməkdə və ABŞ valyutası güc qazanmaqda davam edir. Bundan başqa Hillari Klintonun prezidentliyə demokratlardan namizəd olması (böyük ehtimalla bu, belə də olacaq - K.R.) demokratların ABŞ tarixində ilk dəfə qadın prezident seçilməsi şansı kimi təbliğatda mühüm amili olacaq.

**Ancaq hələlik ABŞ-da prezidentliyə namizədliyə iddialar ortaya qoyulub. Növbəti dönəmdə iki əsas partiya "praymeriz" yolu ilə öz namizədini müəyyən edəcək. Bu mərhələdən kimin qalib çıxacağını isə indidən dəqiq demək mümkün deyil. Hələlik iddiaların elan edildiyi dövrüdür və görünən odur ki, qarşıdakı günlərdə sürpriz namizəd iddialıları ortaya çıxacaq.**

❑ Kənan RÖVŞƏNOĞLU

YENİ MÜSAVAT
N 94 (6122) 2 may 2015



# Nisbi sabitliyin qiyməti

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Bakı ilə Vaşinqtonun arasında yenə "qara pişik" qaçıb. Bunu təkcə iqtidar mediasından yox, paytaxtımızda keçirilən Qlobal Forumdakı ab-havadan da sezmək mümkün oldu.**

Məsələn, Forumdakı müzakirələr zamanı Prezident Administrasiyasının rəsmisi Novruz Məmmədov açıq şəkildə ABŞ-ı nəzərdə tutaraq və ittihamedici formada bildirdi ki, "Azərbaycanı Liviyaya, Suriyaya çevirmək istəyirlər", "Bildiklərimizin hamısını sizə desək, heyrətə gələrsiniz" və s.

Təbii ki, bu, cənab Novruzovun şəxsi mövqeyi deyildi. Sərt ittiham "Azərbaycan" qəzetinin, Bəxtiyar Sadıqovun təxəyyülünün məhsulu da sayıla bilməzdi şübhəsiz. Bu, artıq hakimiyyətin mövqeyi, rəsmi yanaşması idi. Deməli, narahatlıqlar, Qərb sarıdan şübhələr qalır və ciddidir.

Bu şübhələrlə əlaqədar Ağ Evdən və ABŞ-ın Bakıdakı səfirliyindən gələn reaksiyalar bəllidir. Bəs Bakı nədən yenə rahatsızdır? O nədir ki, tərəflər onunla bağlı anlaşa bilmir və münasibətlərdə vaxtaşırı kolliziyalar yaşanır? Axı onsuz da hazırkı və gələcək neft-qaz kəmərlərinin yönü Qərbə doğrudur.

Məntiq diktə edir ki, problem Bakının hələ də strateji seçim etməməsi və universal (ümumbəşəri) dəyərlərə münasibətinə ilişib qalıb. Qərb, ABŞ Azərbaycanın Allah eləməmiş, Suriyaya çevrilməsini, yəni burada vətəndaş müharibəsinin qızışmasını arzulamır? Yenə əlahəzrət məntiq diktə edir ki - yox!

Bir mühüm səbəbi qeyd elədik - indiki və gələcək neft-qaz boru xətləri, Azərbaycana yatırılan çoxmilyardlıq sərmayələr. Bura Azərbaycandakı mümkün qarışıqlığın pis-yaxşı demokratik idarəçiliyin oturuşduğu qonşu Gürcüstana labüd və neqativ təsirlərini də əlavə edin.

Belə durum ən çox kimin karına gələcək? Əlbəttə ki, "bulanıq suda balıq tutmağı sevən" Rusiyanın. Demək, Azərbaycanı qarışdırmaq ittihamları getdi işinin dalınca. Yerdə nə qaldı? Nə qaldısa - o. Yəni təməl haqlar sarıdan gözləntilər.

Bax, bu, "qara pişiyi" oraya salan yetərincə inandırıcı motiv qismində görünür. Daha dəqiqi, istisna deyil ki, ABŞ, Qərb Azərbaycanda bir az da demokratik stabilliyin bərqərar edilməsində maraqlı olmağa başlayıb ki, heç olmasa, Moskvanın ölkədaxili durumu müdaxilə imkanları zəifləsin. Hər halda demokratik ölkələrin təcrübəsi göstərir ki, təməl insan haqlarının qorunduğu ölkələr ən dayanıqlı ölkələrdir və onların daxildən tarazlığını pozmaq qat-qat çətindir.

Gerçəkdən də, hər şeyi sabitliyə qurban vermək çıxış yolu sayılmaz. Xofla, qadağalarla, korlanmış seçkilərlə dövlət yalnız müəyyən müddətə öz sabitliyini saxlayar, çünki belə sabitlik ilk növbədə konkret şəxsiyyətlərin iradəsinə söykənir, oturuşmuş və demokratik sistemə yox.

Buna nisbi sabitlik də demək olar. Necə ki, SSRİ həmin nisbi sabitlikdən sonra təlatümlər və bəlli bir aqibət yaşadı...

***

Azərbaycan isə 24 ildir müstəqil olsa da, nə yazıq ki, hələ demokratik ölkə deyil. Hər il beynəlxalq təşkilatların yaydığı hesabatlarda o, bir qayda olaraq qeyri-azad, siyasi-iqtisadi, biznes azadlıqlarının təmin olunmadığı, media azadlıqlarının məhdudlaşdırıldığı ölkə kimi, Rusiya, Orta Asiya dövlətləri ilə eyni cərgədə təqdim olunur.

Azərbaycan dünyəvi məmləkət sayılsa da, demokratik ölkə sayılmır, təkcə ona görə ki, yox ki, həbsxanasında bir siyasi məhbusun olması artıq o ölkəyə qeyri-demokratik yarlığı qazandırır - bizdə isə onların sayı 10-u keçib - həm də o səbəbə ki, Azərbaycanda hakimiyyət hələ bir dəfə də olsun seçkilər yolu ilə dəyişməyib. Beynəlxalq standartlara görə isə, hakimiyyəti bircə dəfə seçki yolu ilə, legitim şəkildə dəyişməyən ölkələr demokratik deyil.

Bəlkə bu haqda düşünək? Axı Qarabağ məsələsi də insan haqlarına ilişgili problem hesab edilir. Məgər indiyədək biz separatçı bölgənin erməni sakinlərində sabitlik amili ilə özümüzə qarşı pozitiv stimul yarada bilmişik? Təbii ki, onları ən çox düşündürən məqam Azərbaycanın tərkibinə qayıdacaqları təqdirdə təməl haqlarının təmin edilib-edilməməsindən yanadır.

Unutmayaq ki, ermənilərin öz işğalçılıq, separatçılıq hərəkətlərinə dünyanın gözündə haqq qazandırmaq üçün ən əvvəl elə Azərbaycanda insan haqlarının pozulması faktlarından istifadə edirlər.

**Nəhayət, bizə nisbi yox, demokratik sabitlik müqəddəs Qarabağ savaşına görə, "X anı"nda xalq-hakimiyyət vəhdətinə arxayın olmaq üçün gərəkdir. Azdır?**

# Düşərgələrarası "savaşın" sosial şəbəkəsi...

## Tanınmışların statusları göstərir ki, vəziyyət sabitləşib, müzakirələr dayanıb, gündəm boşdur...

**Müxalifət düşərgəsinin "facebook savaşı" səngiyib. Ölkədə populyar sosial şəbəkə olan "facebook"da son vaxtlara qədər düşərgələrarası "savaş" getsə də, bir-birini qarşılıqlı ittihamlar, təhqirlər demək olar ki, dayandırılıb.**

Sosial şəbəkədə müxalifət düşərgəsi tərəfindən son günlər paylaşılan statusların və şəkillərin əksəriyyəti Müsavat başqanının müavini Tofiq Yaqublunun dünyasını dəyişmiş qızı, gənc fəal Nərgiz Yaqublu ilə bağlıdır. Həmçinin, T.Yaqublunun övladının dəfnində iştirak etmək üçün həbsdən yeddi günlük buraxılması, əfvi ilə bağlı gözləntilər də gündəmi zəbt edib. Düşərgələrarası savaş isə demək olar səngiyib. Əksinə, barışıq cəhdləri hiss olunan jestlər var. Onların bir neçəsini topladıq və maraqlı görüntü meydana gəldi.

**Müsavat başqanı Arif Hacılı** aprelin 28-də AXCP sədri Əli Kərimlinin doğum gününü sosial şəbəkə vasitəsi ilə təbrik edib: "Azərbaycan Xalq Hərəkatının fədakar nümayəndələrindən biri, AXCP sədri Əli Kərimlini 50 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edirəm. Ona cansağlığı, şəxsi həyatında xoşbəxtlik, siyasi fəaliyyətində uğurlar arzulayıram". Statusu üç yüzə yaxın insan bəyənib, onlarla şərh yazılıb. Ancaq qarşı tərəfdən cavab gəlməyib.

**Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər** isə son olaraq ANS televiziyasında yayımlanmış "Söz arası" proqramının buraxılışının linkini paylaşaraq yazıb: "Gənc dostlardan biri bu söhbətin linkini mənə göndərdi. 19 il əvvəl keçirilmiş Müsavat-kommunist debatı bu gün- 28 aprel- 1 may arası bəlkə də yerinə düşər...".

**AXCP sədri Əli Kərimlinin** paylaşdığı son status isə T.Yaqublunun övladının yasından sonra həbsxanaya qayıdarkən çəkilən şəklini paylaşaraq yazıb: "Yaşadığı bu ağır faciədən sonra Tofiq Yaqublunu şərlənərək salındığı həbsxanaya yenidən qaytaracaq qədər qəddarsınız..."

O, eyni zamanda Milli Şuranın mitinqinə icazə verilməməsinə də münasibətini açıqlayıb: Hökumət bu mitinqlərdən narahat deyildisə, Avropa Yay Oyunlarına 1 ay qalmış niyə Milli Şuranın 3 may mitinqinə imkan vermədi? Niyə dünyanın bütün diqqətinin Azərbaycan-




da olduğu bir məqamda açıq-aşkar bütün dünya qarşısında bəyan etdi ki, həqiqətən də bu ölkədə sərbəst toplaşmaq azadlığı yoxdur, konstitusiya isə sadəcə kağız parçasıdır. Bilirlər ki, yaxınlarda növbəti devalvasiyaya, sonra da daha ciddi bahalaşmaya start verəcəklər. Və belə bir şəraitdə müxalifətin ardıcıl mitinqləri xalqa imkan yaradacaq ki, etirazlarını küçə və meydanlarda daha böyük izdihamla ifadə etsinlər. Amma bu yolla da heç nəyə nail ola bilməyəcəklər. 3 may dünyanın sonu deyil ki..."

**Digər müavin Nurəddin Məmmədli** isə mobil telefonlarla bağlı yazıb: "Türkiyənin müvafiq orqanı mobil telefon istifadəçilərini mesaj "yağı-şı"ndan xilas etməklə bağlı tarixi qərar qəbul etdi. Bundan sonra abunəçinin razılığı olmadan mesaj göndərən firmalar 50 min lirəyə qədər təzminat ödəməli olacaqlar. Əgər Azərbaycanda hökumət varsa, bizdə də analoji qanun qəbul olunmaqla xalqı bu dəhşətli çilllədən xilas etməlidirlər".

**Müsavat başqanının müavini Elman Fəttah** isə T.Yaqublunun həbsxanaya qaytarılmasından yazıb: "Tofiq Yaqublunu geri-zindana yola saldıq. Olmayan "cəza"sını çəkib, işgəncədən zövq alanların arzusunu yerinə yetirməsi üçün...".

**Digər müavin Səxavət Soltanlı** isə 6 il əvvəl baş verən ADNA terorrunun ildönümündə yazıb: "Terror kimə qarşı olmasından asılı olmayaraq lənətlənməlidir. İstənilən günahsız insanın murdar məqsədlər üçün öldürülməsi sadəcə xəstəlikdir.

6 il əvvəl bu gün ADNA-da günahsız gənclərə qarşı heç bir səbəb olmadan, bu günə kimi əsl səbəbi məlum olmayan, sirli terror hadisəsi baş vermişdi. Bütün terror qurbanlarının ruhu şad olsun!".

**AXCP sədrinin istefa verən müavini Razi Nurullayev** isə Azərbaycan və Ermənistan xarici işlər nazirləri Elmar Məmmədyarov və Edvard Nalbəndyanın Parisdə görüşəcəyini yazıb: "Azərbaycan xarici işlər naziri görüşdə irəliləyiş əldə olunacağını inamla vurğulayıb. Əgər Fransa Prezidenti Fransua Ollandın Cənubi Qafqaza-Azərbaycan və Ermənistana səfərini və onun keçirdiyi görüşlər zamanı Dağlıq Qarabağ münaqişəsini də müzakirə etdiyini nəzərə alsaq, o zaman Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarovun da bundan ruhlanaraq danışıqlarda yeni bir mərhələnin başlandığı anonsunu verməsini başa düşmək olar".

**ADR Rəhbəri Qubad İbadoğlu** isə son olaraq qurumun 29 apreldə keçirilən Bakı şəhəri inzibati-ərazi vahidi üzrə təşkilat sədrlərinin növbəti toplantısından yazıb.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** isə "Hadı Rəcəblidən Azərbaycan türklərinə həqarət" başlıqlı yazının linkini paylaşıb.

❑ RÖYA

# Müsavat yenidən mitinq müzakirələrinə başlayır...

## Elman Fəttah: "Divan bu məsələni müzakirə edəcək"

**Müsavat Partiyası yenidən mitinq müzakirələrinə başlayır. Aksiyalarla bağlı məsələ Partiyanın mayın 4-də keçiriləcək Divanında müzakirə olunacaq. Bu barədə musavat.com-a Müsavat başqanının müavini Elman Fəttah məlumat verib.**

O bildirib ki, mayın 4-də və 5-də mitinq məsələsi əsas müzakirə olunacaq mövzulardandır: "Mayın 4-də Divanın iclasında mitinq mövzusunu müzakirə edəcəyik. Bu məsələ ciddi şəkildə müzakirə olunacaq. Mayın 1-də də bəzi məsələləri müzakirə etmişik. Ayın 5-də, saat 16-da siyasi məhbus problemi ilə bağlı dəyirmi masa keçirəcəyik. Həm dəyirmi masada, həm də rəhbər qurum olan Divanın iclasında aksiyalarla bağlı müzakirələr olacaq. Yəqin ki, qərar veriləcək".

**E.Fəttah həmçinin qeyd edib ki, Müsavatın aprelin 19-da paytaxtda keçirmək istədiyi yürüşə icazə verilmədiyi üçün məhkəməyə də müraciət ediləcək:** "Divan tərəfindən partiyanın vəkillərinə tapşırıq verilib. Vəkillər bu işlə məşğuldurlar, müvafiq sənədlər hazırlanır. Divanda son olaraq bu da müzakirə olunacaq".

**Vəkil Nemət Kərimli** isə qeyd edib ki, məhkəmə ilə bağlı sənədlər hazırdır və gələn həftə təqdim ediləcək. Qeyd edək ki, Müsavat Partiyası Bakı Şəhər İcra Hakimiyyətini məhkəməyə verməyi qərara alıb. BŞİH Müsavatın yürüş müraciətinə müsbət cavab vermədiyi üçün, partiya məhkəməyə müraciət edəcək.

❑ Röya RƏFİYEVA

# “Üçüncü “Maydan”a ehtiyac yoxdur”

## Elxan Şahinoğlu: “Mustafa Cəmiloğlu ilə Ərdoğanın görüşü haqda hər şeyi açıq bilmərəm, ortada gizli saxlanılası məqamlar var”

**“Atlas” Araşdırmaları Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Kiyevdə səfərdədir. Ukraynadakı siyasi proseslər haqqında yazdığı “Maydandan Maydana” kitabının Kiyevdə təqdimat mərasimi keçirən Şahinoğlu bir sıra siyasi liderlər, analitiklərlə görüşüb. “Yeni Müsavat”ın suallarına cavab verən Elxan Şahinoğlu Ukrayna gündəminin bir sıra ilginc məqamlarını açıqlayıb.**

***- Elxan bəy, Ukraynaya budəfəki səfərinizdə “Maydandan Maydana” kitabının təqdimatını keçirdiniz. Tədbir necə keçdi, Ukrayna cəmiyyəti, siyasətçiləri, ekspertləri və jurnalistləri kitabı necə qarşıladılar?***

- “Maydandan Maydana” kitabının ilk təqdimatını fevral ayında Bakıda keçirmişdim. Ancaq elə o zaman özüm üçün müəyyənləşdirmişdim ki, ikinci təqdimatı mütləq Kiyevdə keçirməliyəm. Çünki bu kitabı yazmaqda iki məqsədim olub. Birinci məqsədim Azərbaycan oxucusuna Ukraynadakı vəziyyət haqqında detallı bilgi vermək, analizlərimlə tanış etmək, ikinci məqsədim isə ukraynalılara ölkələrində baş verən olaylar haqqında kənar müşahidəçinin rəyini, analizini çatdırmaq idi. Kiyevdə kitaba maraq hiss etdim. 100 kitab gətirmişdim, 3 günə bitdi. Xeyli müraciət oldur, ancaq kitabım qalmamışdı. Təqdimatı Kiyevin mərkəzindəki məşhur “Ukrayna Evi”ndə keçirdik. Ukraynalı ekspertlərdən biri mənə dedi ki, ukraynalıların gürcülərlə sıx təmasları, bağlılıqları var, ancaq azərbaycanlının Ukrayna haqqında kitab yazması onlar üçün xoş sürpriz olub. Elə kitabı yazmaqla məqsədlərimdən biri də ukraynalılara onların taleyinə və yaşadıqları acılara Azərbaycanın da biganə qalmadığını göstərmək idi. Buna necə nail olduğuma isə kitabı oxuyanlar cavab verə bilər.

**“Ukraynalı ekspertlərdən biri mənə dedi ki, ukraynalıların gürcülərlə sıx təmasları, bağlılıqları var, ancaq azərbaycanlının Ukrayna haqqında kitab yazması onlar üçün xoş sürpriz olub”**

**“Tatarlar ciddi müqavimətə hazır idilər, sadəcə Kiyev onlara məsləhət verdi ki, işğalçılarla qanlı qarşıdurmaya getməyə ehtiyac yoxdur, 2008-ci ildəki Gürcüstan hadisələri təkrarlana bilər”**

***- Ukraynalı jurnalistlər kitabla bağlı daha çox hansı sualları verdilər?***

- Onları daha çox Azərbaycanın Ukraynaya necə dəstək verə biləcəyi, GUAM-ın fəaliyyətinin genişləndirilməsinin mümkünlüyü maraqlandırır. Bu mərasimi bəlkə də kitab təqdimatından çox mətbuat konfransı saymaq olardı. Fürsətdən istifadə edib Ukrayna cəmiyyətinə və siyasi dairələrə vacib bildiyim mesajları göndərdim. Xatırlatdım ki, Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyi halda, Ermənistan BMT-dəki səsvermədə Ukraynanın ərazi bütövlüyünə, Krımın Ukrayna torpağı olmasına səs verməyib. İkincisi, Rusiyanın və Qərbin ikili standartlarından danışdım. Dedim ki, ABŞ doğru edib Donbas separatçılarının bank hesablarını dondurub, onlara viza vermir və s. Ancaq onu da əlavə etdim ki, bununla bərabər Dağlıq Qarabağ separatçılarının lideri rahatca ABŞ-a gedir, Los-Ancelesdə telemarafon keçirir, Konqresdə görüşlər keçirir və s. Yəni ukraynalılara anlatmaq istədim ki, separatçılar arasında fərq qoyulmamalıdır, “yaxşı separatçı” və “pis separatçı” anlayışı düzgün deyil. Dedim ki, Amerikanın “yaxşı” adlandırdıqları separatçılar onlarla Azərbaycan kəndini viran qoyublar, minlərlə günahsız insanı qətlə yetiriblər, Xocalı soyqırımını törədiblər.

***- Sizcə, Ukrayna cəmiyyəti və siyasi dairələri Sizin bu çağırışınızı eşitdimi?***

- Ən azı ukraynalıları düşünməyə vadar etdim, Azərbaycanla Ermənistan arasında fərq qoymağa çağırdım. Kitabın təqdimatında Ukraynanın ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olan 3 azərbaycanlının - Ruslan Əliyevin, İlqar Bağırovun və Tahir Bəşirovun adlarını çəkdim. Ruslan Əliyevin ukraynalı döyüş yoldaşlarından biri ilə görüşmüşdüm. Ruslanın qəhrəmanlıqlarından o qədər ağız dolusu danışırdı ki, fərəhlənməmək mümkün deyildi. Ukraynada 500 min erməni yaşayır və onlar Kiyevin xarici siyasətinə təsir etmək istəyirlər. Krım türklərinin lideri Mustafa Cəmiloğlunun fəallığı olmasaydı ermənilər daxili işlər naziri Arsen Avakovun əli ilə Ukrayna parlamentində “erməni soyqırımı”nı keçirə bilərdilər.

**“Ukraynalılar Saakaşvilidən razılıq edir. O, prezidentin müşaviri kimi düşündüyünü deyir, qüsurları gizlətmir, onların həlli vacibliyini vurğulayır”**

***- Mustafa C’miloğlu ilə də görüşmüsünüz. Əsasən nələri müzakirə etdiniz? Krımla bağlı hansısa proses gedirmi?***

- Çox maraqlı görüşümüz oldu. Məni evinə dəvət etdi. Bir az sınıxıb, səhhətində problemləri var. Kitabımı təqdim etdim. Ukrayna ətrafındakı vəziyyətdən, Krımdan, Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğanla son görüşlərindən danışdıq. Xeyli məlumat verdi. Təəssüf ki, onların hamısını oxucularla bölüşə bilməyəcəm, çünki söylədiklərinin içərisində konfidensial məlumat çox idi, prezidentlərlə şəxsi söhbətlərinin məğzini açmaq istəmirəm. Ancaq bəzi detallara toxuna bilərəm. Qismət olsa, Mustafa Cəmiloğlu və onun son illəri əhatə edən fəaliyyəti haqqında kitab yazmaq istəyirəm, yəqin ki, orada Krım tatarlarının liderinin kiminlə nə söhbət etməsinə dair məsələlərə toxunacam. Çünki həmin məsələlərdə Azərbaycana aid olan önəmli detallar var.

***- Bu detallardan hansına ip ucu verə bilərsiniz?***

- Məsələn mənə aydın oldu ki, Ukraynada erməni lobbisi “soyqırım” qətnaməsinin Ali Radada qəbul olunması üçün bütün imkanlarını səfərbər etmişdi. Mustafa bəy baş nazir Arseniy Yatsenyukun yanına gedib onun inandırmasaydı, vəziyyət indikindən fərqli ola bilərdi. Ona belə cavab verilib ki, məsələni təxirə salırlar. O isə deyib ki, təxirə yox, məsələni birdəfəlik qapatmaq lazımdır. Mustafa bəy Ukrayna rəsmilərinə deyib ki, Siz parlamentdə “soyqırım” məsələsini BMT-dəki səsvermədə Ukraynanın ərazi bütövlüyünə səs verməyən Ermənistana görəmi edirsiniz.

***- Nəyə görə , Kiyev bu məsələdə Bakı və Ankaranı nəzərə almadan addımlar atmağı planlaşdırırdı?***

- Ali Rada məhz Mustafa bəyin təşəbbüsü ilə türk dünyası ilə münasibətlərin gərginləşməsinin astanasından dönüb.

O, baş nazir Yatsenyuka bu yanlış addımın Ukrayna ilə Türkiyə və Azərbaycan arasındakı münasibətlərdə gərginlik yarada biləcəyini deyib. Mustafa bəy bu il iki dəfə Ərdoğanla. O, çox narahatdır ki, beynəlxalq aləm Krımı unudur və bunun baş verməməsi üçün səhhətindəki problemlərə rəğmən, dünyanın aparıcı dövlətlərinin liderləri görüşür, fikir mübadiləsi aparır. Ancaq özünün də dediyi kimi, hələ ki, Krım Rusiyanın əlindədir. Mustafa bəyə ən çox toxunan son “Minsk sazişi”ndə Krımla bağlı bircə kəlmənin də olmamasıdır. Bu iradını prezident Poroşenkonun da diqqətinə çatdırıb. Onun kədərli şəkildə dediyi bir sözünü heç zaman unutmaram. Mustafa bəy mənə dedi ki, krım tatarlarının bir qismi yarımamadanı tərk etmək istəyir və ona müraciət edirlər ki, nə edək? Mustafa bəyin onlara cavabı bu şəkildədir ki, biz vətənimizə qayıtmağımız üçün onilliklər gözlədik, qayıtdıq, indi yenidən Krımı tərk etməməliyik (halbuki, Kreml Mustafa bəyin özünə Krıma girişə qadağa qoyub). Mustafa bəy bu mövzuda son sözü belə oldu: “İnsanları inandırmağa çalışıram, ancaq heç özüm də bilmirəm ki, axırımız necə olacaq. Bu suala cavab tapa bilmirəm, ağırdır”.

***- Bildiyimə görə, Mustafa bəyin bu məsələdə Kiyevə də iradları var.***

- Bəli. Elə mənim də tənqidlərim var və bunu kitabımda yazmışam. Vaxtilə Kiyev Krım tatarlarına status vermədi. Bu, işğaldan sonra yadlarına düşdü, onda da artıq gec idi. Mustafa bəy mənə dedi kimi, ona da bəzən yerli rəsmilər iradla deyirlər ki, niyə Krım tatarları işğalçı ilə savaşmadılar? O da deyir ki, məgər yarımamadakı ukraynalılar savaşdılar, işğala ciddi müqavimət göstərdilər? Mustafa bəy ötən dəfə də mənə söyləmişdi ki, əslində tatarlar ciddi müqavimətə hazır idilər, sadəcə Kiyev onlara məsləhət verdi ki, işğalçılarla qanlı qarşıdurmaya getməyə ehtiyac yoxdur, 2008-ci ildəki Gürcüstan hadisələri təkrarlana bilər. Ancaq Ukraynada Krımsız da Gürcüstan ssenarisi təkrarlandı. Bilmək olmaz, əgər Ukrayna Krım uğrunda silahlı müqavimət göstərsəydi və tatarlara mane olmasaydı, vəziyyət bəlkə fərqli inkişaf edərdi, Moskva da anlayardı ki, yarımadanı asanlıqla ələ keçirmək mümkün deyil.



***- Ukraynada siyasi durum necədir? Hakimiyyətin antikorrupsiya, antiterror addımları, Qərbin yardımları hansı dəyişikliklər yaradıb?***

- Belə deyək, durum sabit, ağır olaraq qalır. Sabit ona görə ki, müvəqqəti atəşkəsdir, ölənlərin sayı azalıb, dövlət nəfəs almaq üçün fasilə əldə edib. Ağır ona görə ki, iqtisadiyyatda müsbət yenilik yoxdur, insanların sosial durumu ağırdır. İnflyasiya milli valyutanı dəyərdən salır, vaxtilə 500 dollarlıq maaş indi 100-150 dollara enib. Bu pulla dolanmaq çətindir. Sənaye müəssisələri iqtisadi sınaqların qurbanı olub.

***- Hökumət niyə islahatları ləngidir?***

- İslahat riskdir, gəlirsiz zavod və fabriklər qapanmalıdır, sosial müavinətlər və əhaliyə verilən kompensasiyalar azalmalıdır. Hökümət isə bütün bu addımları ata bilmir - əhalinin durumunun bir qədər də ağırlaşmasından ehtiyat edirlər. Ona görə də hələ ki, kosmetik dəyişikliklərə məşğuldurlar.

***- Prezident Pyotr Poroşenkonun reytinqi yüksək olaraq qalırmı?***

- Prezidentin də, baş nazirin də reytinqi az da olsa enib. Ancaq söhbət etdiyim ekspertlərin ümumi fikrindən və müşahidələrimdən belə qənaətə gəldim ki, bu gün seçki keçirilsə Poroşenkonun qalib gəlmək şansı yenə yüksəkdir. Çünki hələlik onun güclü alternativi yoxdur. Əhali onu başa düşməyə çalışır, müharibə getdiyi dövrdə prezidentə əlavə problem yaratmaq istəmirlər. Poroşenko nəsə etməyə çalışır. Məsələn, Ukraynada oliqarxların qızıl dövrü arxada qalıb, artıq oliqarxlar dövlət başçısına nəsə diqtə edə bilmirlər. Poroşenko oliqarx Kolomiyskini yerində elə oturdu ki, indi onun səsi də çıxmır. Buna baxmayaraq, Kolomoyski ilərdir o qədər “şişib” ki, Ukraynada onu siyasətdən kənar təsəvvür etmək çətindir. Bu şəxsin bankları, təsiri altında olan bir necə partiyası, maliyyələşdirdiyi silahlı qrupları var. Bunların hamısını onun əlindən almaq problematikdir.

**“Ukraynada oliqarxların qızıl dövrü arxada qalıb, artıq oliqarxlar dövlət başçısına nəsə diqtə edə bilmirlər”**

***- Kiyevdə Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili və gürcü əsilli nazirlərdən necə razıdırlarmı?***

- Ukraynalılar Saakaşvilidən razılıq edir. O prezidentin müşaviri kimi düşündüyü deyir, qüsurları gizlətmir, onların həlli vacibliyini vurğulayır. Ancaq gürcü nazirlərdən o qədər də razı deyillər. Məsələn Ukraynanın səhiyyə naziri Aleksanr Kvitaşvili məsul olduğu sahədə ciddi dönüş yarada bilmir. Səhiyyə Ukraynanın ən çox korrupsiyalaşmış sahəsidir. Kvitaşvilini tənqid üçün bəlkə də tezdir. Əgər ukraynalıların dediyi kimi səhiyyə SSRİ ilərindən korrupsiyalaşıbsa, nazir bir-iki ilə bunu necə düzəldə bilər? Bir də islahatlara pul və səhiyyə işçilərinin maaşlarının artırılması lazımdır ki, Ukrayna büdcəsində bu yoxdur.

***- Yaxın gələcək üçün ukraynalıların gözləntiləri yalnız iqtisadiyyatla bağlıdır?***

- Vətəndaşların avromaydandan böyük gözləntiləri vardı. Bu gün də var. Ancaq Ukrayna çətin bir yoldan keçir. Ukraynalılar anlayırlar ki, həyatları qısa müddətdə normallaşmayacaq. “Maydan” hələ qızıl dövrün başlanğıcı deyil. Yeni dövr üçün ən azı sabitlik və inkişaf lazımdır. Hələ ki, Ukraynada bu ikisi yoxdur. Ancaq ukraynalılar perspektivə inanırlar, ən azı azaddırlar, istədiklərini söyləyə bilirlər. Sadəcə, müxtəlif fikirlilik anarxiyaya səbəb olmamalıdır.

**“Mustafa bəyə ən çox toxunan son ”Minsk sazişi"ndə Krımla bağlı bircə kəlmənin də olmamasıdır. Bu iradını prezident Poroşenkonun da diqqətinə çatdırıb"**

***- Nəyi nəzərdə tutursunuz?***

Təqdimat mərasimində jurnalistlərdən biri məndən soruşdu ki, kitabın adını niyə “Maydandan Maydana” adlandırmısınız? Bunun mənası nədir? Ukraynalılardan eşitdiyim bir cümləni ona xatırlatdım: Ukraynada “Maydan” beyinlərdə davam edir! Ona görə də kitabın adını belə qoydum. Ancaq bu sözlərimə onu da əlavə etdim ki, Ukrayna üçüncü Maydanı daşımaq gücündə deyil. “Məncə bəsdir” dedikdə zalda gülüşmə oldu. Çünki dedim ki, inqilab əks-inqilab yaradır. Ukraynanın isə birinci növbədə sabitliyə ehtiyacı var ki, inkişafa qədəm qoysun. Əks halda düşmənlərimizi sevindirəcəyik.

**“Krım türklərinin lideri Mustafa Cəmiloğlunun fəallığı olmasaydı, ermənilər daxili işlər naziri Arsen Avakovun əli ilə Ukrayna parlamentində “erməni soyqırımı”nı keçirə bilərdilər”**

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 94 (6122) 2 may 2015

# Avropada investisiya qoymaqla vətəndaşlıq ala bilərsiniz

**Dünyanın bir çox inkişaf etmiş ölkələrində yaxşı pulu olan xarici vətəndaşlar üçün "yaşıl işıq" yandırılır. Belə ki, bir ölkənin iqtisadiyyatına 500 -600 min dollar və ya avro vəsait yatırmaqla həmin ölkədə uzunmüddətli oturma izni almaq, bir çox hallarda isə vətəndaşlıq almaq belə mümkündür. Dövlətlər bu yolla xarici sərmayəçiləri cəlb edir, iqtisadiyyata qoyulan yatırımların həcmini artırır. Sözügedən praktikadan istifadə edən ölkələr sırasında ABŞ, İngiltərə, Kanada, Portuqaliya və digər ölkələrin adlarını çəkmək olar.**

İngiltərə iqtisadiyyatına 1 milyon funt-sterlinq məbləğində investisiya yatırmaqla "sərmayəçi vizası" əldə etmək mümkündür. Latviyada bunun üçün 150 min avro investisiya tələb olunur. Portuqaliyada 500 min avro, Cənubi Kiprdə 300 min avro, Yunanıstanda 250 min avro, Kanadada 600 min Kanada dolları, ABŞ-da 500 min ABŞ dolları investisiya yatırmaqla "qızıl viza" almaq mümkündür. Şərtlərə görə, bu vəsaitlər biznesə yatırılmalıdır və onun çox az bir qismini daşınmaz əmlak almaq olar. Məsələn, ABŞ-da 500 min dollar investisiya yatırılırsa, bunun 150 min dollardan artıq hissəsi ev alınmasına sərf oluna bilməz. Sadalanan bu ölkələrdə müəyyən olunan məbləğdə yatırım edən xarici vətəndaşlara uzun müddətli viza verilir və 3-4 il mütəmadi yaşadıqdan sonra onlar müəyyən yoxlamalardan keçərək ölkənin vətəndaşı ola bilərlər. Yaşamaq dedikdə, hər ilin müəyyən olunan müddətini bu ölkədə yaşamaq nəzərdə tutulur. Bəzi ölkələrdə ilin 180, bəzilərində 200 gününü orada yaşamaq vətəndaşlıq alınması üçün məcburidir.

Yalnız İspaniyada 2 milyon avro investisiya qoymaqla birbaşa vətəndaşlıq almaq mümkündür. Ancaq burada investisiyanın hansı sahəyə yatırılacağına hökumət qərar verir.

Azərbaycanda isə qanunvericiliyə görə, vətəndaşlıq verilməsi mümkün olmasa da, müvəqqəti və daimi oturma hüququ verməklə bağlı investisiya qoyan şəxslərə bu cür imtiyazlar nəzərdə tutulur.

Bu barədə "Yeni Müsavat"a danışan **hüquqşünas Müzəffər Baxış** bildirdi ki, Azərbaycan iqtisadiyyatına azı 500 min manat məbləğində yatırım edənə müvəqqəti yaşam icazəsi verilməsi mümkündür: "Miqrasiya Məcəlləsinin 45-ci maddəsinə görə, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün icazə verildiyi hallar nəzərdə tutulur: Azərbaycan vətəndaşı olan şəxslə yaxın qohumluğu olduqda, ölkə iqtisadiyyatına azı 500 min manat məbləğində investisiya qoyduqda, ölkə ərazisində azı 100 min manatlıq daşınmaz əmlaka sahib olduqda, və ya Azərbaycan Respublikası banklarında həmin məbləğdə pul vəsaiti olduqda, iqtisadiyyat, sənaye, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda və digər bu kimi hallarda həmin şəxslərə müvəqqəti icazə verilməsi üçün və ya sonradan daimi icazə verilməsi mümkündür".

**Hüquqşünasın sözlərinə görə, vətəndaşlığın verilməsi ilə bağlı güzəştlər elm, texnika, idman və sair sahələrdə yüksək uğur qazanmış şəxslərə şamil olunur:** "Vətəndaşlığın verilməsi ilə bağlı isə iqtisadiyyat, elm, texnika, idman sahəsində xidmətləri olan şəxslərə "Azərbaycan Respublikası vətəndaşlığı haqqında" qanunun 14-cü maddəsinə görə belə şəxslərin vətəndaşlığa qəbulu üçün imtiyazlar nəzərdə tutulub. Qanuna görə, həmin əcnəbi şəxslərə vətəndaşlıq əldə etməsi üçün ən azı 5 il ölkə ərazisində yaşaması tələb olunur. Qanunvericilikdə bəzi hallarda həmin əcnəbi şəxslərin və vətəndaşlığı olmayanların 5 il müddəti nəzərə alınmadan vətəndaşlığı qəbul edilməsi nəzərdə tutulur. Şəxsin elm, texnika, mədəniyyət, idman sahəsində yüksək nailiyyətləri olduqda, şəxs ölkə üçün xüsusi əhəmiyyət kəsb etdiyi hallarda 5 il müddəti nəzərə alınmaya bilər. Ancaq investisiya yatırımına görə, vətəndaşlığa qəbul nəzərdə tutulmayıb, ancaq oturma icazəsi almaq üçün güzəştli şərtlər mövcuddur".



**Müzəffər Baxış:** "Azərbaycanda vətəndaşlığın verilməsi ilə bağlı güzəştlər elm, texnika, idman və sair sahələrdə yüksək uğur qazanmış şəxslərə şamil olunur"



**Vüqar Bayramov:** "ABŞ, Kanada və Avropa ölkələri ilə müqayisədə xaricilər üçün Azərbaycan vətəndaşlığı o qədər də cəlbedici deyil"



**Vahid Əhmədov:** "İnvestisiya cəlb etmək üçün bu yaxşı variantdır, ancaq təhlükəsizlik baxımından əlverişli deyil"

**İqtisadçı ekspert Vüqar Bayramlı** isə bildirdi ki, təkcə ABŞ və Kanadada deyil, Avropa Birliyinə üzv olan bir sıra ölkələrdə bu praktika tətbiq edilir: "Burada əsas məqsəd ölkəyə daha çox investisiya cəlb etməkdir. Eyni zamanda yüksək məbləğdə investisiyaya malik olan şəxslərin təhlükəsizlik baxımından da hər hansı problem yaradacağı gözlənilmir. Bu baxımdan həmin şəxslərin cəmiyyətə sosial mənfi təsirləri olmadığı üçün dövlətlər onlara vətəndaşlıq verməkdə maraqlıdırlar. Azərbaycanda bu praktikanın tətbiq edilməməsinin əsas səbəblərindən biri ondan ibarətdir ki, müharibə şəraitində olan ölkədir, Ermənistan tərəfindən torpaqları işğal edilib. Bu baxımdan belə vətəndaşlıqların verilməsinin müəyyən riskləri var. Azərbaycanda ikili vətəndaşlığın tətbiq olunmamasının da səbəbi budur.

Son illərdə dünyada terror hərəkatlarının daha da intensivləşməsi bəzi dövlətlərin oxşar praktikanı tətbiq etməyə tərəddüdlə yanaşmasına gətirib çıxarır. Azərbaycanda mövcud tərəddüd də məhz bununla bağlıdır. İndiki məqamda iqtisadi baxımdan bu cəlbedici olsa da, siyasi və təhlükəsizlik baxımından məqbul hesab edilmir. Təbii ki, gələcəkdə inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da bu praktikanın tətbiq edilməsi mümkündür. Bu qeyri-neft sektoruna yatırılan investisiyanın artmasına səbəb olacaq".

**İqtisadi ekspert onu da vurğuladı ki, ABŞ, Kanada və Avropa ölkələri ilə müqayisədə xaricilər üçün Azərbaycan vətəndaşlığı o qədər də cəlbedici deyil:** "Avropa Birliyi ölkələrinin vətəndaşı olmaq imkan verir ki, vizasız dünyanın əksər ölkələrinə səfər edə bilsinlər. Azərbaycan vətəndaşlarının vizasız getdiyi ölkələrin sayı elə də çox deyil. Azərbaycan inkişaf etməkdə olan ölkədir və buranın vətəndaşlığı olmaq xaricilər üçün cəlbedici görünmür".

**Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov** isə qeyd etdi ki, hər kəsə vətəndaşlıq vermək düzgü deyil: "Bəlkə o yatırım edən şəxslər hansısa dövlətin agentura şəbəkəsində işləyir. Bu insanlar ölkəyə qəbul edilərkən ciddi şəkildə yoxlanılmalıdır. İnvestisiya cəlb etmək üçün bu yaxşı variantdır, ancaq ciddi yoxlamalardan keçməlidir. Qanunvericilik də xarici vətəndaşın ölkəyə investisiya qoymasına mane olmur. Ancaq vətəndaşlığa qəbul etməyin şərtləri başqadır. Azərbaycan müharibə aparan dövlətdir, əcnəbilər gəlib burada vətəndaşlıq alıb sonradan təxribatlar törədə bilərlər".

❑ **Nərgiz LİFTİYEVA**

# "NBS bank"ın filial müdiri haqda ilginc ittihamlar

## **Talehə İsmayılova:** "Anar Sadıqovun göndərdiyi şəxslər həyətimə soxulub maşınımın nömrələrini açıb aparıblar"; "bizi yarım saat otağında girov saxladı"

**Bakı şəhəri, Nərimanov rayonu Aşiq Qərib 12A ünvanda yaşayan İsmayılova Talehə Əmirxan qızı redaksiyamıza bankda üzləşdiyi özbaşınalıqla bağlı şikayət edib. O, müraciətində yazır: "17 mart 2015-ci il tarixdə təxminən saat 11 radələrində yaşadığım ünvana 3 naməlum şəxs gəldi. Onlar müştərisi olduğum "NBS Bank"ın işçiləri olduqlarını və bankın Nərimanov filialının direktoru Anar Sadıqov tərəfindən göndərildiklərini bildirdilər. Onlarla birgə banka getməyimi və mənə məxsus, bankda kreditdə olan "NİSSAN TİİDA" markalı, 90 ST 270 dövlət qeydiyyat nişanlı maşınımın sənəd və açarlarını tələb etdilər.**

Evdə azyaşlı uşağımı tək qoyub heç yerə çıxa bilməyəcəyimi, 2 saat sonra 10 gün gecikdirdiyim krediti ödəyəcəyimi, həmçinin Anarla görüşəcəyimi desəm də, məndən israrla maşının sənəd və açarlarını tələb edərək, avtomobili aparacaqlarını dedilər. Bunun tam qanunsuz olduğunu, maşınımı kredit gecikməm olsa belə, yalnız məhkəmə qərarından sonra saxlaya biləcəklərini bildirdim. Cavabları bu oldu ki, heç bir qərar yoxdur, sadəcə Anar Sadıqov tapşırıb ki, gedin maşını əlindən alın gətirin. Mən evə daxil olub vəkilimlə danışmaq istədim, bu müddətdə bir yaxın adam bizə qonaq gəldi. O, mənə dedi ki, həyətdəki adamlar maşının qabaq və arxa nömrələrini açıb çıxıb getdilər, bunu qonşular da gördü. Mən dərhal həyətə düşdüm, artıq bank işçiləri çıxıb getmişdilər. Qonşulardan biri həyətimə girib nömrəni açıb gedən adamlardan birinin şəklini çəkib. (Yazıya əlavə edilir-red.) Dərhal qohumlarım Azər və qardaşı Cəfərə xəbər etdim. Onlar bizə gəldilər. Birlikdə banka gedib Anar Sadıqovla görüşüb məsələyə aydınlıq gətirmək üçün görüşmək istədik. Mühafizəçi Anar Sadıqovla telefonla danışdı, bizə 15 dəqiqə sonra Anar müəllimin qəbul edəcəyini bildirdi. O müddət ərzində Anar Sadıqovun mənim evimə göndərdiyi şəxsləri gördüm, soruşdum ki, niyə nömrəni açıb qaçmısınız, o, mənə "heç nə bilmirəm, biz Anar müəllim nə dedi, onu da etdik" cavabını verdi. Qohumum Azərlə birlikdə Anar Sadıqovun yanına qalxdıq. Sonra sübut olsun deyə, danışığımızı yazmaq üçün telefonun diktofonunu qoşdum".



Anar Sadıqov



Maşının nömrəsini açan şəxs

**Şikayətçi deyir ki, A.Sadıqov kabinetində onları hörmətsiz şəkildə qarşılayıb:** "Öncə təxminən 15 dəqiqə kimləsə danışdı və sonra saymazyana şəkildə "eşidirəm sizi" dedi. Maşınımın nömrələrini niyə açıb apartdığını soruşanda dedi ki, guya onun bundan xəbəri yoxdur, bunu problemli kreditlər şöbəsinin əməkdaşları edib. Dedim ki, axı onlar sizin adınızdan danışdılar, bankın qarşısında da rastlaşmışıq. Bundan sonra bizi təhdid etməyə başladı. Bilərdə ki, bu söhbətimiz və danışıqları diktofona qeydə alınır, mühafizəçini çağırtdırdı, qapını arxadan bağladı və bizi otağında yarım saata yaxın girov saxladı. Polisin müdaxiləsindən sonra biz bankdan çıxmağa müvəffəq olmuşuq, bu zaman onun mühafizəçiləri mənə qarşı kobudluq ediblər, qohumu Azəri təxribata çəkib dava salmaq istədilər. Ancaq biz heç bir təxribata getmədik və bankdan birtəhər çıxıb polis bölməsinə şikayət etməyə yollandıq".

**Şikayətçi deyir ki, özlərinin apardığı araşdırmaya görə, A.Sadıqovun indiyədək xeyli sayda bank müştərisinin qanunsuz olaraq maşınını girov saxlaması, nömrələrini açdırıb apartdırması üzə çıxıb:** "Bu adam həmçinin özünə yaxın olan bir notariusla əlbir olub vətəndaşların başına oyunlar açır. Bizə bankda təzyiqlər göstərilməsi, otağında girov saxlamasını əks etdirən videogörüntüləri də polisə verməkdən imtina etdi. Həmçinin, işi aparan müstəntiqə də təzyiqlər göstərib. Nəhayət, aprelin 28-də mənə istintaqdan bildiriş gəldi ki, şikayətimə baxılması rədd edilib, gedib 22 manat verib yenidən nömrə çıxartdırım. Məndən soruşulmayacaqmı əvvəlki nömrələr hanı? Ən əsası, mənim pozulan hüquqlarım, Anar Sadıqovun cinayət xarakterli əməlləri niyə araşdırılmır? Belə bir adam bank filialı rəhbəri vəzifəsində niyə saxlanılır? Başıma gələnlərlə bağlı ölkə prezidenti İlham Əliyevə də məktub yazmışam. Onu da nəzərinizə çatdırım ki, Anar Sadıqov bununla ikinci dəfədir mənə qarşı qanunsuzluq edir. O, 06 sentyabr 2014-cü ildə qəzaya uğramış maşınımın 14 yanvar 2015 ilə qədər "Nurgun Motors"dan servisdən çıxarılmasına mane olub".

**İttihamlarla bağlı bankın və Anar Sadıqovun da mövqeyini dərc etməyə hazırıq.**

❑ **M.MAHRIZLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Bakı Forumundan dünyaya Qarabağ çağırışları

## Konfliktin uzanmasında Rusiya qədər Qərbin də bərabər günah payı üzə çıxır; "Müharibə olmaz, Ermənistana Rusiya kimi işğalçı gözü ilə baxmaq da yanlışdır", o zaman konflikt necə yoluna qoyulsun?..

**Saxta erməni soyqırımının 100 illiyinin Dağlıq Qarabağ məsələsinə bir mühüm faydası o oldu ki, problemin həllində vasitəçi güclərin nə dərəcədə səmimi və obyektiv olduqları bütün çılpaqlığı ilə ortaya çıxdı. Söhbət öncəliklə ATƏT-in Minsk Qrupunun iki həmsədr dövləti - Rusiya və Fransadan gedir.**

Rusiyanın nə qədər qərəzli vasitəçi olduğu onsuz da bəlli idi. Amma Fransa neqativ göstəriciyə görə artıq onu ötüb keçdi. Bunun son təzahürü fransalı deputatların mayın 3-də Dağlıq Qarabağda keçiriləcək qanunsuz "parlament seçkiləri"ni müşahidə eləməyə hazırlaşması sayıla bilər.

Bakıda təzəcə başa çatan III Qlobal Açıq Cəmiyyətlər Forumu çərçivəsində aparılan müzakirələrdə Qarabağ məsələsinə Qərbin, Rusiyanın ikili standart yanaşmasına bir daha diqqət yönəldi. Problemin həllinin uzanmasının köklü səbəbləri sadalandı.

"Təəssüf ki, Qarabağ ixtilafını dondurulmuş münaqişəyə çeviriblər. Böyük güclər Azərbaycanın işğal olunmuş torpaqlarının qaytarılması üçün faktiki olaraq heç bir ciddi səy göstərmir". Bunu Forumda iştirak edən Ukraynanın keçmiş prezidenti Leonid Kuçma virtualaz.org-a açıqlamasında deyib.




**MDB məkanındakı digər münaqişələrlə analogiya aparan sabiq prezident Donbası da eyni aqibətin gözlədiyini bildirib:** "Putin Donbası Dağlıq Qarabağa döndərib. Azərbaycanda Qarabağ münaqişəsi, Gürcüstanda Cənubi Osetiya, Abxaziya, Moldovada Dnestryanı məsələ həll olundumu? Donduruldu. Donbas məsələsini də eyni aqibət gözləyir. Çünki böyük ehtimalla Rusiya Ukrayna ilə müharibə etməyəcək, bu, ona baha başa gələr. Amma ocağa odun atmaqda davam edəcək".

***

**Bakıda olan Avropa Birliyinin (AB) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Zalber isə Dağlıq Qarabağ probleminin həllinə AB-nin baxışını ortaya qoyub.** Lakin əfsus ki, o, işğalçı Ermənistanla işğalçı Rusiya arasında bərabərlik işarəsi qoyulmasının əleyhinə çıxıb.



Vasitəçilərin və münaqişə tərəflərinin çoxillik səylərinin konfliktin həllində irəliləyişə gətirməməsinə görə təəssüfləndiyini bildirən qurum yetkilisi hesab edir ki, qarşılıqlı güzəştlər olmasa münaqişənin həlli, çətin ki, mümkün olsun. Onun fikrincə, barışıq yollarının axtarışı üçün Ermənistanda, Azərbaycanda və Qarabağda vətəndaş cəmiyyətlərinin işini davam etdirmək lazımdır. "Son nəticədə münaqişənin həlli sıravi vətəndaşlardan asılı olacaq. Hələlik isə biz tənzimlənmə haqqında danışa bilmərik", - deyə Zalber qeyd edib.

"Avropa Birliyinin mövqeyinə gəlincə, Brüssel Minsk Qrupunun səylərini dəstəkləyir və bu prosesdə baş rolu oynaya bilməz. Kompromislərə hazır olmaq lazımdır, amma biz hələlik bunu görmürük. Biz münaqişəni onun iştirakçılarının yerinə həll edə bilmərik", - deyə o bildirib.

Maraqlıdır ki, bu yerdə AB rəsmisi Dağlıq Qarabağ münaqişəsinin digər münaqişələrlə müqayisə edilməsini yanlış saydığını deyərək, Qərbin Ukrayna və Qarabağdakı vəziyyətlə bağlı rolunun və hərəkətlərinin müqayisə edilməsinə qarşı çıxıb: "Münaqişələrdən hər birinin öz tarixi və kökləri var. Onları müqayisə etmək səmərəli deyil. Bundan başqa, hər bir halda bu və ya digər dövlətlərin geosiyasi maraqları mövcuddur. Xüsusən də Rusiyanın Ukraynadakı hərəkətlərinə görə ona qarşı tətbiq edilmiş sanksiyaların Ermənistana qarşı tətbiq ediləbiləcəyinə şübhə edirəm".

**Problemin hərbi yolla həlli haqqında suala cavabda Zalber bildirib ki, bu, həddindən artıq risklidir və hərbi əməliyyatlar bərpa edilərsə, "hamı uduzar". Çünki "müharibənin nəticələrini təxmin etmək mümkün deyil".**

***

Qəribə yanaşmadır, deyilmi? Həm də ümumilikdə Qərbin bu günə bir növ Qarabağa dair daşlaşmış mövqeyini ifadə edir. Bu mövqe də ondan ibarətdir ki, müharibə eləmək olmaz, amma Rusiya kimi Ermənistana işğalçı gözü ilə baxmaq, ona sanksiyalar tətbiq eləmək də mümkün deyil və bütün bunların fonunda üstəlik, işğalçı ilə işğala məruz qalan tərəf kompromisə getməlidir.

**Zalberdən soruşmaq gərəkir: beynəlxalq birlikdən heç bir təpki, təzyiq görməyən təcavüzkar güzəştə gedərmi?**

AB yetkilisi beləcə, Dağlıq Qarabağ məsələsini o birilərindən ayırmağa və BMT qətnamələrini yada salmadan Azərbaycan torpaqlarının faktiki, işğalına haqq qazandırmağa çalışır. Sonra da münaqişənin həllinin illərlə uzanmasına təəccüb edirlər. Məhz bu və başqa reallıqları ciddiyə alan Azərbaycan prezidenti İlham Əliyev Forumdakı çıxışı zamanı AB-nin də ünvanına tənqidlər səslənirdi, təşkilatı Qarabağ məsələsində konkret mövqe sərgiləməməkdə qınadı.

***

**Söz yox ki, postsovet məkanındakı konfliktlərin nizama salınmasında ən böyük əngəl Moskvadır.** Bu münaqişələri birləşdirən digər ortaq bir cəhət isə əlbəttə ki, separatçı rejimlərin hamısının arxasında Rusiyanın dayanmasıdır. Özü də bu dəstək yalnız mənəvi-siyasi xarakterli deyil, Donbasdakı kimi həm də hərbi xarakterlidir. Bunu Dağlıq Qarabağdakı qondarma rejimin başçısı Bako Saakyanın açıqlaması bir daha təsdiqləyir.

**Saakyan Rusiyanın Azərbaycanı silahlandırması mövzusu haqda danışarkən deyib:** "Mən Rusiyanın Bakıya silah verməyi daha nə qədər davam etdirəcəyini bilmirəm. Ancaq nəzərə almaq lazımdır ki, Rusiya Qarabağ qüvvələrinə də fəal dəstək verir. Bizim zabitlərimiz müntəzəm olaraq rusiyalı həmkarları ilə staj keçirlər".

Separatçı rejimin rəhbərinin etirafı Rusiyadan birbaşa hərbi dəstəyin olduğuna şübhə yeri saxlamır. Hətta belə qənaət formalaşıb ki, Qarabağdakı erməni silahlı qüvvələri birbaşa Rusiyadan - Qarabağ münaqişəsinin həlli ilə məşğul olmalı olan ATƏT-in Minsk Qrupunun üç həmsədrinin birindən alır.

***

**Sadalananlar sözsüz ki, Moskvanın keçmiş müttəfiq respublikalarındakı separatçı qurumlara bilavasitə nəzarət etdiyini, onların Moskvadan nə dərəcədə asılı olduğunu bir daha təsdiqləyir. Putinin 24 aprel İrəvan səfərində şərt kimi Bako Saakyanın İrəvana, yubiley tədbirlərinə qatılmasına qadağa qoyulması bu asılılığın hansı səviyyədə olduğunu qabarıq formada nümayiş etdirdi. Deməк, Kremlin İrəvana və Xankəndinə təsir rıçaqları güclüdür və Rusiya istəsə, konfliktin həllində çox asanca**



Hikmət Hacıyev

# XİN-dən Dağlıq Qarabağ xəbərdarlığı

## "Bölgəyə qanunsuz səfər edənlər barəsində cinayət işi açılacaq..."

**Azərbaycanın Ermənistan tərəfindən işğal edilən ərazilərində yaradılmış qondarma rejimin keçirdiyi qanunsuz "parlament seçkiləri" Azərbaycanın Konstitusiyası, qanunları və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır. Bunu Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Azərbaycanın işğal olunan ərazilərində mayın 3-də keçirilən qanunsuz "parlament seçkiləri" və bu seçkilərdə "müşahidəçi" kimi iştirak edən şəxslər barəsində məsələləri şərh edərkən deyib.**

H.Hacıyev bildirib ki, bu "seçkilərlə" əlaqədar XİN tərəfindən fevralın 27-də bəyanat verilib: "Azərbaycan ərazisində siyasi iradənin seçki vasitəsilə ifadəsinin legitim əsasını yalnız Azərbaycanın Konstitusiyası və qanunları təşkil edir. ATƏT Minsk Qrupunun həmsədrlərinin sülh sazişi üzərində işə başlamaq üçün etdiyi çağırışlarına məhəl qoymayaraq, Ermənistan tərəfdən "seçki" adı altında atılan bu təxribatçı addım yalnız danışıqlar prosesinə xələl gətirmək və Azərbaycana qarşı işğal və təcavüzü pərdələmək məqsədi daşıyır.

Beynəlxalq ictimaiyyət tərəfindən bu qeyri-qanuni "seçkilər" pislənilir, qanunsuz hesab edilir və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində dəstək ifadə olunur. ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən aprelin 30-da verilən bəyanatda bu seçkilərin tanınmadığı bir daha vurğulanır.

İşğal olunan Azərbaycan ərazilərində Ermənistan tərəfindən təşkil olunan belə "seçkilərdə" öz-özünü "müşahidəçi" adlandıran bəzi marginal siyasi şəxslərin bu kimi davranışı Azərbaycan qanunlarının kobud şəkildə pozulması kimi qiymətləndiriləcək. Özü-özünü "müşahidəçi" elan edən bu şəxslərin fəaliyyəti işğal, təcavüz və Azərbaycan xalqına qarşı törədilən qanlı etnik təmizləmənin nəticələrinin təşviqinə xidmət edir.

Slovakiya vətəndaşı Frantişek Mikloşkonun halında olduğu kimi, işğal olunan ərazilərə qanunsuz səfər edən və Azərbaycanın qanunlarını kobud şəkildə pozan bu kimi özü-özünü "müşahidəçi" elan edən şəxslərə münasibətdə də cinayət təqibinin başlana biləcəyi istisna deyil. Mikloşko barəsində əməliyyat-istintaq hərəkətləri davam etdirilir və onun barəsində İnterpol vasitəsilə axtarış verilib".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 94 (6122) 2 may 2015

# Hepatit B peyvəndi - həyat qurtaran vaksin

## Adil Qeybulla: "Vaksinin çox böyük əhəmiyyəti var və mən özüm də vaksinasiya etmişəm..."

**Hepatit B virusu artıq Azərbaycanda da sürətlə yayılmağa başlayıb və mütəxəssislərin sözlərinə görə milli fəlakət halına gəlib. Bu gün çox sadə bir yolla hər bir sağlam insan Hepatit B-nin qurbanına çevrilə bilər. Xüsusən də, gözəllik salonlarında, bərbərxanalarda, stomatoloji, ginekoloji kabinetlərdə gigiyenik normalara əməl olunmaması infeksiyanın daha sürətlə yayılmasına səbəb olur.**



Dünyanın əksər ölkələrində Hepatit B-nin peyvəndi hər kəsə tətbiq olunur və bu da virusa yoluxmanın qarşısını alır. Bəs, Azərbaycanda necə, belə bir vaksinasiya aparılırmı? Vaksinlərin keyfiyyətinə və vurulma qaydalarına nə dərəcədə əməl olunur?

"Yeni Müsavat"ın bu suallarını cavablandıran **tibb elmləri doktoru Adil Qeybulla** bildirdi ki, bu peyvəndin vurulması olduqca önəmli və effektivdir: "Vaksinasiya məsələsinə bizim millətin yanaşması çox paradoksaldır. Bir faktı deyim ki, dünyada 4 karantin infeksiya taun, vəba, sarı qızdırma və təbii çiçək virusudur. Bu 4 infeksiyanın biri - təbii çiçək məhz peyvənd edilməsi nəticəsində aradan qalxıb. Siz diqqət etsəniz 50 yaşdan yuxarı insanların qollarında o peyvəndin izləri hələ də qalıb. Bu peyvəndin hesabına artıq təbii çiçək infeksiyası sıradan çıxıb, artıq gənclər bu virusa qarşı vaksinasiya olunmur. ÜST hesabat verdi ki, bu xəstəlik artıq aradan qalxıb. Bu vaksinasiyanın təsir gücünü göstərir".

**A.Qeybullanın sözlərinə görə, Hepatit C-nin vaksini hələ ki tapılmasa da, Hepatit B-nin çox təsirli vaksini mövcuddur:** "Bunun üzərində hazırda ciddi iş gedir və demək olar ki, hazır olmaq ərəfəsindədir. Mən özümə də Hepatit B-nin vaksinasiyasını etmişəm. Bu vaksin 5-7 il müddətinə insanda immunitet yaradır. Vaksinin çox böyük əhəmiyyəti var və onun uşaqlara vurulmasının dövlət proqramına salınması da çox düzgün addımdır".

**Hepatit B peyvəndinin əks təsirinə gəlincə, Adil Qeybulla bunun o qədər də ciddi fəsada yol açmadığını vurğuladı:** "Azərbaycanda Hepatit B virusunun daha keyfiyyətli vaksinləri gətirilib və bu gün ayrı-ayrı klinikalarda tətbiq olunur. Vaksin 3 dəfə vurulur - bir ay sonra ikinci vaksin, üç ay sonra üçüncü vaksin. 5-7 ildən sonra təkrar vaksinasiya edilməlidir. Bunun heç bir qorxusu və təhlükəsi yoxdur. Ola bilər ki, poliklinikalara alınan vaksinlərin keyfiyyəti aşağı olsun, vurulma qaydaları gözlənilməsin. Mən bu barədə məlumatlı deyiləm. Bu peyvəndin əks göstərişləri odur ki, allergik təsiri ola bilər. Ancaq ciddi bir əks göstərişi yoxdur".

Qeyd edək ki, hər il 4000-ə yaxın insan Hepatit B -nin səbəb olduğu sirroz və ya qaraciyər xərçəngindən dünyasını dəyişir. Hepatit B kəskin xəstəlik formasında iştah itkisi, ishal və qusma, yorğunluq hissi, dəridə və gözlərdə sarılıq, əzələlərdə, oynaqlarda və mədədə ağrılara yol aça bilər. Kəskin xəstəlik əlamətləri daha çox yetkinlərdə rast gəlinir. Xəstəliyi yoluxmuş uşaqlarda bu simptomlara aşkarlanmır. Bəzi insanlarda xəstəliyin irəlilədiyi zamanda belə heç bir əlamətə rast gəlinmir. Ancaq infeksiya çox ciddi fəsadlara, qaraciyər sirrozuna yol aça, ölümlə nəticələnə bilər. Xroniki infeksiyalara böyüklərdən fərqli olaraq, azyaşlılarda daha çox rast gəlinir. Xəstə insanların görünüşlərinin normal olmasına baxmayaraq, infeksiyanı digər insanlara da yaya bilərlər. ABŞ-da təxminən 1.4 milyon xroniki hepatit B virus infeksiyalı adam var. Hepatit B virusu yoluxmuş adamın qan və bədən mayeləriylə asanca yayılır.

Xəstəlik həmçinin virusun yoluxduğu cisimlərlə təmas yolu ilə yoluxa bilər. Hepatit B virusu əşyalar üzərində 7 günə qədər yaşaya bilir. Virus daşıyıcı olan anadan körpəyə doğum əsnasında keçir. Bundan əlavə dəridə yara olduğu təqdirdə qan və ya bədən mayelərinin təması ilə, diş fırçası, ülgüc və ya şəkər xəstəliyinin yoxlanması və müalicəsində istifadə edilən alətlər, yoluxmuş insanla qorunmasız cinsi əlaqə, narkotik dərmanların istifadəsi zamanı iynələr paylaşılması zamanı da yoluxma mümkündür.

**Hepatit B-dən qorunmağın ən effektli yolu peyvənddir.**

❑ Nərgiz LİFTİYEVA

# Eşşək südü astma xəstəliyinin dərmanıdır?

## "Bundan "göy öskürək" deyilən xəstəliyə qarşı istifadə ediblər"; dünyada ən bahalı pendir ulaq südündən hazırlanır

"Eşşək südü bronxial astma xəstəliyinin dərmanıdır". Bu iddianı Türkiyə mətbuatı yayıb. Belə ki, Türkiyənin Denizli şəhərində yaşayan, bronxial astma xəstəliyindən əziyyət çəkən yaşlı qadının oğlu eşşək südünün bu xəstəliyə çarə olduğunu eşidir. Məlumatın həqiqət olduğuna əmin olduqdan sonra o, eşşək ferması yaradaraq eşşək südü ticarətinə başlayıb.

Ümumiyyətlə isə Türkiyə alimləri qeyd edirlər ki, eşşək südü təbabətdə əhəmiyyətli dərəcədə faydalıdır. Bildirilir ki, onun tərkibindəki minerallar bədənin müqavimətini artırır, immunitet sistemini gücləndirir. Artıq bu ölkənin bir çox ərazilərində eşşək fermaları yaradılıb.

Qonşu Türkiyədən gələn bu məlumatlar ölkəmizdə də maraqla qarşılanıb. Bəs görəsən həkimlərimiz eşşək südünün bu faydasından təbabətdə istifadə edəcəklərmi? Azərbaycanda bronxial astma xəstəliyindən əziyyət çəkənlərin sayının çoxluğunu nəzərə alaraq həkim məsləhətinə üz tutduq.

Təbii üsullarla müalicə edən **həkim-loğman Seyfəddin Əsəd** bu barədə "Yeni Müsavat"a danışıb. O, eşşək südünün bronxial astma xəstəliyinə qarşı faydalı olmasını təkzib edib: "Yayılan bu məlumatı ciddi hesab etmirəm. Ta qədimdən nənələrimiz eşşək südündən təbabətdə istifadə ediblər, lakin "göy öskürək" deyilən xəstəliyə qarşı. Bu xəstəlik uşaqlar üçün daha çox təhlükəlidir və heç bir iynə-dərman eşşək südü qədər əhəmiyyətli olmur, belə məqamlarda bu süd əvəzolumaz müalicə vasitəsidir".

"Azərbaycanda da eşşək ferması yaradılmasına ehtiyac varmı?" sualımıza həkim bu cür cavab verdi:

"İnamıram ki, bizim ölkədə də belə bir ferma yaradılsın. Bunun üçün kifayət qədər eşşək lazımdır, bildiyimə görə, bizdə eşşəklərin sayı o qədər də çox deyil. Bu cür ferma bizim mentalitetimizə də uyğun deyil".

Qeyd edək ki, el arasında belə bir inanc var ki, eşşək südü ana südünə çox yaxındır. Hətta məlumatlar gəzir ki, ucqar kəndlərdə yeni doğulan uşaqları bu südlə mayalandırırlar. Seyfəddin Əsəd təcrübəli həkim kimi bu məsələyə də öz münasibətini bildirib:

"Bu çox yanlış addımdır. Adətən qədimdə nənələrimiz yeni doğulan uşaqları bal ilə mayalandırırdılar. Xüsusilə qərb zonasında belə edərdilər. Bildiyimə görə, Ağdaş və Qarabağ zonasında bu üsuldan hələ də istifadə edilir. Lakin eşşək südünün bu məsələyə heç bir aidiyyəti yoxdur".

Xatırladaq ki, hazırda dünyada eşşək südünün faydalarından yararlanan ölkələr var. Onların arasında ABŞ, Braziliya, Fransa, İtaliya, İngiltərə, İspaniya, Çin və daha neçə ölkənin adını çəkmək olar. Ümumiyyətlə, eşşək südü ilə bağlı ən çox araşdırmalar aparan, onun faydalarını öyrənməyə çalışan ölkə İngiltərədir.

**Serbiyada isə eşşək südündən pendir də hazırlanır. Pule pendiri adı altında hazırlanan pendir əsasən Balkan ölkələrində saxlanılan eşşəklərin südündən istehsal edilir. Məlum olub ki, dünyanın ən bahalı pendiri eşşək südündən hazırlanan pendirdir. 1 kq çəkili pendirin qiyməti 1000 avrodur. Onun belə baha satılmasına səbəb 1 kq. pendir üçün 25 litr eşşək südünün istifadə edilməsidir.**

❑ Xalidə Gəray

Azercell

# «Azercell» «Asan İmza» xidmətinə pulsuz qoşulma kampaniyasını elan edir

Hər zaman abunəçilərini sərfəli kampaniyalarla sevindirən «Azercell Telekom» Azərbaycanın mobil elektron imza xidməti olan "Asan İmza"ya cari ilin 10-31 may tarixləri ərzində qoşulmanın ödənişsiz olacağını elan edir. Belə ki, hazırda "Asan İmza" xidmətinin aktivləşdirilməsi üçün təyin edilmiş məbləğ 18 AZN təşkil edir və qeyd edilən tarixlərdə «Azercell» abunəçiləri mobil operatora müraciət edərək bu məbləği ödəmədən "Asan İmza" xidmətini aktivləşdirə biləcəklər. Sözügedən kampaniyanın keçirilməsi may ayında ölkə üçün əlamətdar olan mühüm tarixləri - Azərbaycan xalqının Ümummilli Lideri, ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünü və Respublika Gününü qeyd edəcək həmvətənlərimizin bayram ovqatına əlavə sevinc qatmaq məqsədini daşıyır.

Hazırda dövlət strukturlarının təqdim etdiyi elektron xidmətlərin cəmləşdiyi Elektron Hökumət portalında 400-dən artıq, ümumilikdə isə ölkə üzrə sayı 500-ü keçmiş elektron xidmətlərdən yararlanmaq üçün "Asan İmza"dan istifadə oluna bilər. "Asan İmza"nın köməyilə vətəndaşlar kütləvi istifadə üçün nəzərdə tutulmuş bir sıra elektron xidmətlərdən asanlıqla və operativ şəkildə faydalana bilərlər - belə ki, əvvəlki dövrlərdən fərqli olaraq heç bir quruma fiziki olaraq müraciət etmədən vətəndaşlar şəxsiyyət vəsiqəsi, yaşayış yeri, iş yeri və diplom haqqında arayışları elektron şəkildə formalaşdıra və lazımi instansiyaya təqdim edə, məktəblilər təhsil aldıqları təhsil müəssisəsi barədə elektron arayışı əldə edə, eləcə də adına stasionar telefon nömrəsi rəsmiləşdirilmiş şəxslər rabitə xidmətlərinə görə borcun olmamasına dair arayışı formalaşdıra bilərlər.

"Asan İmza" avtomobil sahibi olan şəxslər üçün də tam yeni və rahat xidmətlər vəd edir. Belə ki, "ASAN Xidmət" tərəfindən istifadəyə verilmiş "Asan Ödəniş" portalında sürücülər "Asan İmza"dan istifadə edərək əlavə qeydiyyatdan keçmədən öz elektron kabinetlərinə daxil olaraq real zaman rejimində yol-hərəkət qaydalarının pozuntusuna görə cərimələrinin olub-olmamasını yoxlaya, cərimənin foto və video materialları ilə tanış ola və cəriməni onlayn ödəyə bilərlər. Bundan əlavə, "Asan Ödəniş" portalında (www.asanpay.az) avtomobillərinin dövlət nömrə nişanlarını "Asan İmza" vasitəsilə qeydiyyatdan keçirən bütün sürücülər cərimələri barədə "Asan Ödəniş" sistemi tərəfindən ödənişsiz SMS ismarıclar alacaqlar.

Gələcəkdə də «Azercell»in abunəçiləri üçün "Asan İmza" ilə mümkün olan bu cür rahat və ictimai həyat üçün mühüm əhəmiyyət kəsb edən vacib elektron xidmətlərin siyahısı davamlı olaraq genişlənəcək və mobil imza xidməti gündəlik həyatın daha çox sahəsinə nüfuz edərək vətəndaşların rahatlığına daha yaxından xidmət edəcəkdir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 94 (6122) 2 may 2015

**Həftə ərzində milli valyuta olan manat cüzi bahalaşmaqda davam edib. Ekspertlər isə bahalaşmanın qısamüddətli olacağı qənaətindədirlər. Ekspert Samir Əliyevin sözlərinə görə, cüzi bahalaşmanın bir neçə səbəbi var:**



# "Manatın indiki bahalaşması uzunmüddətli deyil"

## Samir Əliyev: "Manat heç zaman əvvəlki kimi baha olmayacaq"


Samir Əliyev

"Həftəni manat inamla başa vurur. Çünki Mərkəzi Bank hər gün manatı cüzi də olsa bahalaşdırır. Yola salacağımız həftədə manatın dollara olan rəsmi məzənnəsi 0,2 faiz möhkəmlənərək 1,0502-dən 1,0482-yə qalxıb. Manatın indiki həddi devalvasiyadan sonra ən yüksək həddir. Ciddi enmə-qalxmalara rəğmən manat aprelin əvvəlindəki həddəki mövqeyinə qalxıb. Manatın rəsmi məzənnəsinin bahalaşması əlbəttə dünya bazarlarında neftin bahalaşması ilə bağlıdır".

Ekspert qeyd edib ki, martın ortalarından başlayaraq üzü yuxarı qalxan neft manata yönələn təzyiqlərə qarşı qalxan rolunu oynayır: "Aprel ayında Brent markalı neft 20 faizə qədər bahalaşıb. Bu isə manatın devalvasiyası qərarını xeyli ertələyir. Neftin bahalaşmasını ABŞ iqtisadiyyatının inkişafı ilə bağlı gözləntilərin özünü doğrultmaması və slans neftinin hasilatının pik həddə çatması kimi rəylər, Yəmən ətrafındakı münaqişə təmin edir. Hətta Səudiyyə Ərəbistanı və İraqın timsalında OPEK-in aprel ayında neft hasilatını son 2 ildə maksimum həddə çatdırması da bazara təsir edə bilmir".

**S.Əliyev qeyd edib ki, FED-in son iclasında uçot dərəcəsinin qaldırmaq niyyətini bəyan etməməsi son 2-3 həftədə təzyiq altında qalan dolları daha da ucuzlaşdırdı:** "Dollar hazırda bütün valyutalara nisbətən ucuzlaşır. Hazırda manatın da bahalaşmasını şərtləndirən amil məhz dolların ucuzlaşmasıdır. Bivalyuta səbətinə keçid manatı dünya bazarlarında dollar-avro məzənnəsinə həssas edir. Ancaq manatın hazırda bivalyuta səbəti əsasında məzənnəsinin müəyyənləşdirilməsi real görünmür. Bu səbətdə dollar və avronun payı hələ də açıqlanmayıb. Manatın məzənnəsinin dəyişməsi isə hər iki valyutanın dünya bazarlarında dəyişməsinə adekvat deyil. Bu isə manatın məzənnəsinin əvvəlki dövrdə olduğu qaydada müəyyənləşdirilməsi fikrini möhkəmləndirir".

Ekspertin fikrincə, neftin bahalaşması və dolların ucuzlaşması manat üçün əlverişli şərait yaradır: "Üstəgəl, Rusiyada rublun bahalaşması da manatın xeyrinədir. Bu gün baş verən proseslər nəticəsində uzunmüddətli nəticələr çıxarmaq tezdir. Çünki inadlı artıma rəğmən neftin bahalaşmaqda davam edəcəyini söyləmək çətindir. Hazırda neft 70 dollarlıq psixoloji həddi keçməyə çalışır. Bu, Azərbaycanın vəziyyətini xeyli yaxşılaşdırır. Çünki neft 90 dollara olanda büdcəyə daxilolma köhnə məzənnə ilə, yəni 78 qəpiklə hər barel üçün 70 manat isidə, hazırda yeni məzənnə ilə həmin həddə yaxındır".

**S.Əliyev bildirib ki, əsas problem Neft Fondunun gəlirləri ilə bağlıdır:** "İndiki məzənnə ilə Neft Fondunun dövlət büdcəsi qarşısında öhdəliklərini yerinə yetirmək çətin olacaq. Deməli, çıxış yolu ya xaricdəki aktivlərə müraciət etməkdir, ya da gündəmdə olan devalvasiya tədbirlərinə əl atmaqdır.

Əmanətlərin dollarlaşdırılması prosesinin yekunlaşmaqda olması, neftin itirdiyi mövqelərini bərpa etməsi, dolların ucuzlaşması, rublun möhkəmlənməsi, ən əsası bazarda panik vəziyyətin olmaması artıq manatı rahat nəfəs almağa imkan verir. Ona görə də hökumət bu şəraitdə ən azı seçkilərə qədər manatı ucuzlaşdırmaqda maraqlı olmayacaq. Hətta ola bilsin manatla dolları bərabərləşdirsin. Bunun üçün hökumət büdcəyə yenidən baxmalı, xərcləri ixtisar etməli, o cümlədən Neft Fondundan transferi azaltmalıdır. Ancaq göstərdiyimiz amillər neftin ucuzlaşması ilə aradan qalxa bilər. Ona görə də manatın indiki bahalaşmasını uzunmüddətli hesab etmək düzgün olmazdı. Ən əsası, bir fikri özümüz üçün aydınlaşdıraq ki, manat heç zaman əvvəlki kimi baha olmayacaq".

❑ RÖYA

# Avropa Oyunları zamanı nələr qadağandır...

## Apteklərə dərman ləvazimatlarının paylanması, ərzaq dükanlarına malların verilməsi yalnız gecə saatlarında olacaq...

**İyun ayının 12-28 arasında Bakıda keçiriləcək I Avropa Oyunlarına hazırlıq işləri yekunlaşır. Artıq bəzi ölkələrin bu oyunlara nə qədər idmançı ilə qatılacaqları barəsində məlumat da verilib. Türkiyə I Avropa Oyunlarına 153, İrlandiya 36, Almaniya 267, İsveçrə 30, Danimarka 65, Bolqarıstan 109, Litva 60, Böyük Britaniya 150 idmançı ilə qatılacaq.**




Avropa Oyunları zamanı Bakı normal günlərdən fərqli olacaq. On altı günlük oyunlar zamanı paytaxt Bakıda bir çox yeniliklərin şahidi olacağıq. Onlardan bəziləri haqda topladığımız məlumatlara sizə təqdim edirik:

**1** - Oyunlar zamanı ictimai yerlərdə, bir çox parklarda, olimpiya kəndində, oyunlar ətrafında olan sahələrdə pulsuz "wi-fi" zonalar istifadəyə veriləcək. Bunların bir çox hissəsi əsasən operatorlar, provayderlər tərəfindən həyata keçiriləcək.

**2** - Avropa Oyunları zamanı sərnişin avtobus sürücüləri yalnız vahid formada xidmət göstərəcəklər. Əgər sükan arxasında forma geyinməmiş sürücü aşkarlanarsa, həmin şəxs dərhal xətdən çıxarılacaq.

**3** - Xüsusi parkinq qaydaları tətbiq ediləcək. İlk Avropa Oyunları zamanı idman obyektlərinə yaxın ərazilərdə yaşayan vətəndaşlara parkinq icazəsi vərəqələri veriləcək. Oyunlar zamanı parkinq vərəqəsi olmayan vətəndaşlara avtomobillərini qadağan olunan yerlərdə saxlamağa icazə verilməyəcək. Həmin avtomobillər evakuatorlar vasitəsilə cərimə meydançalarına aparılacaq.

**4** - Xəzər sahilindəki çimərliklər ciddi mühafizə olunacaq. Artıq şəxsi heyətə çimərlik dövründə xilasetmə işləri ilə bağlı görüləcək işlər haqda məlumatlar verilib.

**5** - Avropa Oyunları zamanı ictimai nəqliyyat vasitələri 20 saatlıq iş rejimində çalışacaqlar. Oyunların keçiriləcəyi günlərdə ictimai nəqliyyat səhər saat 05:00-dan gecə saat 01:00-dək çalışacaq.

**6** - Avropa Oyunları zamanı sadələşdirilmiş viza rejimi tətbiq ediləcək. Əcnəbi vətəndaşlar Avropa Oyunlarının açılışına 10 gün qalmışdan etibarən oyunların başa çatmasının son gününə qədər Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin Azərbaycanın beynəlxalq hava limanlarında yerləşən struktur bölmələrində 30 günlük birdəfəlik giriş vizası ala biləcəklər.

**7** - Bakının 300 səhiyyə işçisi Avropa Oyunları zamanı tibbi xidmət göstərəcək. Ölkəmizə gələcək idmançılar və qonaqlara müvafiq tibbi xidmət göstərilməsi üçün Bakıda Kliniki Tibbi Mərkəz və Bakı Sağlamlıq Mərkəzi, Mingəçevirdə isə Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası tam hazır vəziyyətə gətirilib.

**8** - Avropa Oyunları zamanı təcili yardım helikopterləri istifadə olunacaq. Azərbaycanın bir neçə il öncə aldığı Agusta-Westland-139 helikopterlər təcili tibbi yardım xidməti göstərən ambulans-helikopterlər kimi istifadə ediləcək.

**9** - Bakıya 500 ədəd yeni "London taksi"si gətirilib. Yeni taksilər ilk olaraq Avropa Oyunları zamanı rəsmi qonaqların və idmançıların istifadəsinə veriləcək. Həmin taksilər "Bakı taksi xidməti" adlı qurumun tabeçiliyində fəaliyyət göstərəcək.

10 - Avropa Oyunları ilə bağlı Bakıya yeni metro qatarları gətirilib. Artıq qatarlar istifadəyə də verilib.

***Oyunlarla bağlı bəzi qeyri-adi qadağalar tətbiq edilib:***

**1** - Avropa oyunları zamanı toy etmək qadağan edilib. Paytaxtda tıxacların aradan qaldırılması, şəhərdə sıxlığın qarşısının alınması üçün yarış günlərində toy təşkilinə icazə verilməyəcək.

**2** - Bəzi yollara icazəsiz daxil olanlar 60 manat cərimələnəcək. Artıq paytaxt Bakının yollarında "Bakı-2015" ilk Avropa Oyunlarının əsas marşrut şəbəkəsi boyunca hərəkət zolaqlarının çəkilməsi prosesinə başlanıb. Oyunlar zamanı ekspress marşrutlar xüsusi zolaqlarda hərəkət edəcək. Oyunlar ərəfəsində həmçinin əhalinin istifadəsi üçün də bir yol ayrılacaq. Bu zolaqda ancaq təyin edilmiş nəqliyyat vasitələrinin hərəkəti nəzərdə tutulur. Buraya daxil olan digər sürücülər cərimə olunacaq. Yola müvafiq nişanlar qoyulacaq, kameralar quraşdırılacaq və nəzarət olunacaq.

**3** - Avropa Oyunları zamanı Bakıda iş vaxtı rejimi dəyişdirilib. Və artıq mayın 1-dən etibarən bu qərar qüvvəyə minib.

**4**- Paytaxtın inzibati ərazisindəki 9 məntəqə və lazımi yollar, onlarla kəsişən küçələrdə avtomobillərin hərəkətinə məhdudiyyət qoyulacaq. Bunları nəzərə alaraq, vətəndaşlara Avropa Oyunları zamanı şəxsi avtomobillərdən istifadə etməmək tövsiyə edilir. Vətəndaşların rahatlığını təmin etmək üçün xüsusi müasir avtobuslar xidmətə buraxılacaq.

**5** - Gündüzlər bəzi işlərə qadağa qoyulacaq. Oyunlar zamanı təmir bərpa işlərinin, kommunal təsərrüfat işlərinin görülməsi ancaq gecə saatlarında reallaşa biləcək.

**6** - Apteklərə dərman ləvazimatlarının paylanması, ərzaq dükanlarına malların verilməsi də yalnız gecə saatlarında olacaq. Həm dükan sahiblərinə, həm topdansatış mərkəzlərinin rəhbərlərinə, həm də istehsalçılara tapşırılacaq ki, məhsulların daşınmasını yalnız gecə saatlarında həyata keçirsinlər.

**7** - Özəl şirkətlərin rəhbərləri ilə də əlaqə saxlanılacaq ki, mümkün dərəcədə həmin vaxt işçiləri məzuniyyətə, yaxud ezamiyyətə göndərsinlər. Yük daşınması ilə məşğul olanlar da tapşırıq veriləcək ki, işlərini həmin günlərə qədər yekunlaşdırsınlar.

**8** - Olimpiya günlərində yas mərasimləri üçün çadırların nəqliyyatın hərəkətinə mane olacaq yerlərdə qurulması qadağan edilib.

**9** - Avropa oyunları ərəfəsində Bakıda bir çox yerlərdə spirtli içki satışına qadağa qoyulacaq. Arenaların ətrafındakı bütün mağazalarda içki satışı tamamilə qadağan olunacaq.

**10** - Binaların küçə və prospektlərə baxan eyvanlarına əşyalar qoyulmasına, paltar asılmasına qeyri-rəsmi qadağan qoyulub. Buna səbəb isə şəhərin ümumi görüntüsünün korlanmamasıdır.

❑ Məhəmməd TÜRKMƏN

YENİ MÜSAVAT
Son səhifə
N 94 (6122) 2 may 2015

# Dünyanın ən yaxşı işi



Çox insan gecəsini gündüzünə qataraq işləyir. Bəziləri isə ayın sonunu gətirmək üçün yuxu üzü belə görmürlər. Bəs dünyanın ən yaxşı işi haradadır? Bu iş nədən ibarətdir? Dünyanın ən yaxşı işi 29 yaşlı qıza məxsusdur. 29 yaşlı Rianna Teylor Avstraliyada yaşayır. Çoxları işdən qazandığı pulu istirahətə sərf edir. Onun işi isə ən lüks hotelləri ziyarət edib, gəzmək və bu istirahətə görə pul almaqdan ibarətdir. Rianna dünyanın ən gözəl hotellərində qaldıqdan sonra onlar haqqında bloqunda məlumat paylaşır. Onun paylaşdıqlarından isə istirahətə hazırlaşanlar faydalana bilər.



## Rokfeller 6-cı dəfə ürəyini dəyişdi

Amerikalı milyarder Devid Rokfellerin ürəyinin dəyişdirilməsi üzrə altıncı dəfə aparılan əməliyyat müvəffəqiyyətlə keçib. Onun ürəyinin transplantasiyası 6 saat davam edib və prosedur Nyu-Yorkda biznesmenin malikanəsində aparılıb. D.Rokfeller birinci dəfə 1976-cı ildə avtomobil qəzasına düşdükdən sonra əməliyyat olunub. Həkimlər 99 yaşlı biznesmenə əməliyyatdan 36 saat sonra jurnalistlərin bir neçə sualına cavab verməyə icazə verib. Milyarder deyib: "Hər dəfə mənə yeni ürək qoyulur, sanki həyatın nəfəsi mənim bədənimin arasından sürətlə keçir. Mən enerjinin və həyatın yükünü hiss edirəm."

O, uzun ömurlülüyünün sirri haqqında suala belə cavab verib: "İnsanlar mənə bu sualı tez-tez verirlər. Mən isə həmişə eyni cavabı verirəm - həyata sevgi, həyatda sadə yaşamaq, uşaqlarla oynamaq, maraqlı məqamlardan həzz almaq, yaxşı insanlara, sadiq dostlarla vaxtı keçirmək. Hansılar ki, bunlar sizdə də var. Mən öz həyatımda çox pul qazandım, amma bunun böyük hissəsini xərclədim, payladım. Əgər sən onu bölüşə bilmirsənsə, qazanmağın mənası yoxdur".

D.Rokfeller zarafatla 200 ilə qədər yaşamaq niyyətində olduğunu söyləyib.

## Sürət həddinə görə 54 min avro cəza




Yol hərəkəti qaydalarına verilən cəza qazanca görə hesablandığı Finlandiyada bir iş adamına rekord cəza verilib. Surət həddini 23 kilometr saat aşan Reima Kuisa 54 min avro cəza kəsilib. 80 kilometr surətlə hərəkət edilən yolda 103 kilometr surətlə hərəkət edən biznesmen Reima Kuisla ona verilən 54 min avroluq cəza qarşısında şoka düşüb. R.Kuisla bank hesabında 6,5 milyon avro olduğu üçün bu qədər çox cəza aldığını deyib. Finlandiyada baş verən hadisə Amerika mediasında lağ mövzusuna çevrilib. "Nyu-York Times" qəzetinin xəbərinə görə, Finlandiyada sürücülərin yol hərəkəti qaydalarına əməl etmələri üçün belə cəzalar tətbiq edilir. Kuisla aldığı cəzaya nə qədər əsəbiləşdiyini göstərmək üçün sosial mediada status yazıb və 54 min avroya nələr ala biləcəyini sadalayıb. Biznesmen 2013-cü ildə də 64 min 448 avro yol cəzası ödəyibmiş. Bu günə qədər yol hərəkəti qaydaları üçün ödənilən ən yüksək məbləğ 94 min avro olub.

## Dənizin ortasında ayrı bir dünya



İngiltərənin bir turizm firması olan Vight adası yaxınlarında kiçik adanın üzərində yuvarlaq hotel inşa edib. Açılışı bu həftə edilən otel üçün aylar əvvəl rezervasiyalar başlayıb. Dənizin ortasına olduğu üçün müştərilərin diqqətini cəlb edən hotelin üzərində təcili hallar üçün vertolyot meydançası da var. Uşaqlar üçün oyun parkı və 23 otağı olan oteldə eyni vaxtda 200 nəfər qala bilər. Hoteldə bir gecə qalmağın qiyməti 500 dollardır.



## İnsanın meymun qohumları?

Malayziyada yaşayan Cəmil İsmail insan kimi davrandığı iki meymununun qohumu hesab edilməsi üçün məhkəməyə müraciət edib. Heyvansevərlər isə İsmaili vəhşi heyvanları əsir etməkdə günahlandırıblar. Cəmil İsmail və meymunlarının şəklini çəkən AFP şirkətinin fotoqrafları onların münasibətlərinə təəccübləndiklərini deyiblər. Hər biri 45 dollara alınan makak cinsli meymunlarla Cəmil İsmail ailə üzvləri kimi davranır. Shaki və JK adlı meymunlara Malayziyanın milli paltarlarını geydirən İsmail onları özü ilə birlikdə restorana aparır. Onları qohumları kimi göstərmək üçün məhkəməyə də müraciət edib. İsmail meymunların onun qohumu olduğunu desə də, onları parklarda oynadaraq pul yığır.




**QOÇ** - Hər şeyə loyal yanaşın, ənənəvi olmayan heç bir işə müdaxilə etməyin. Nəzərə alın ki, bu gün hər hansı risk uğursuzluqla nəticələnə bilər. Siyasi proseslərdə isə "pərdə arxasına" keçin.

**BUĞA** - Gün ərzində əsas idarəetmə öz əlinizdə olacaq. Odur ki, qarşıya qoyduğunuz məqsədlərə yetişməkdə bir qədər israrlı olmağınız vacibdir. Hər şeydən öncə informasiya toplamağa çalışın.

**ƏKİZLƏR** - Ailə-sevgi münasibətlərinə ədalətli mövqedən yanaşsanız, heç bir probleminiz olmayacaq. Fəaliyyət zəminində də olaylar xeyrinizə işləyəcək. Amma rəhbərliklə mübahisə yaratmayın.

**XƏRÇƏNG** - Günün ilk yarısında bacardığınız qədər diqqətli olun ki, hər hansı fiziki zədə almayasınız. Təxminən saat 15-dən sonra isə bir neçə hadisə sizi məmnun edəcək. Bu gün səfərə çıxmayın.

**ŞİR** - Münasibətlər sistemində diqqətli və ədalətli olun, ələlxüsus da ailə müstəvisində. Əgər qarşınızda duran bu təqvimdə hər hansı mübahisəyə yol versəniz, bu, uzun müddət davam edəcək.

**QIZ** - Əsas gücünüzü fəaliyyətə yönəldin. Öz bacarıq və məsuliyyətinizlə hörmət qazanmağa çalışın. Şəxsi büdcənizdə artım etmək üçün apardığınız danışıqlarda maksimum ehtiyatlı olun.

**TƏRƏZİ** - Daima ünsiyyətdə olduğunuz doğma və yaxınlarııza xüsusi qayğı göstərin. Çünki planetlərin bürcünüzdəki neqativ düzülüşü hər türlü mübahisədən qaçmağa əsas verir. İstirahət etməyə dəyər.

**ƏQRƏB** - Bu gün xeyriyyəçi timsalında davranın. Hər hansı münaqişəni və ya düşmənçiliyi təsəvvürünüzə belə gətirməyin. Ünsiyyətdə olduğunuz insanları anlamağa çalışın. Yalan vəd verməyin.

**OXATAN** - Əsas gücünüzü maliyyə problemlərinin həllinə yönəldin. Bunun üçün bütün mümkün variantları gözdən keçirin. Qarşınızda işlə bağlı yeniliklər də gözlənilir, amma səhhətinizi də qorumalısınız.

**OĞLAQ** - Ulduzlar gün ərzində yeniliklərlə rastlaşacağınızı proqnozlaşdırır. Bu səbəbdən gün ərzində bir an da boş dayanmamalısınız. Axşama doğru yaxın bildiyiniz kəslərə qonaq gedə bilərsiniz.

**SUTÖKƏN** - Ötən ay xeyli işləriniz yarımçıq qaldığından bütün gücünüzlə onları başa çatdırmalısınız. Çünki bugünkü qədər şanslı olmayacaqsınız. Amma bütün qərarlarda ədalətə söykənməyə çalışın.

**BALIQLAR** - Əgər təkbaşına hər hansı işin öhdəsindən gələ bilmirsinizsə, etibar etdiyiniz insanlarla məsləhətləşin. Ümumiyyətlə, bu gün kənardan deyilən tövsiyələrə daha ciddi yanaşın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Mirasını qonşuya verdi




İngiltərədə yaşayan 75 yaşlı Ronald Butçer 500 min sterlinqlik mirasını 6 il əvvəl qarşılıq gözləmədən evinin damını düzəldən qonşusu Daniel Şarpa verib. Butçerin qərarı miras sahibi olmağı gözləyən iki qardaşı oğlunu şoka salıb. Ölümündən iki ay sonra evində cəsədi tapılan Butçerin vəsiyyəti məhkəməyə çıxarılıb. D.Şarp Butçerlə səviyyəli bir dostluq qurduğunu, lakin bu qərarı gözləmədiyini deyib. Ailəsi onun pulunun qardaşı uşaqlarına verilməsini məhkəmədən tələb etsə də, hakim onun əqli problemi olmadığı üçün mirasını D.Şarpa verilməsinə qərar verib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300